

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Milli varlığımız, kimliyimiz - Ana dilimiz!**




10


SƏS

№ 134 (6817)

1 avqust 2023-cü il.

Qiymәti 60 qәpik


# Azərbaycan diplomatiyası və beynəlxalq birlik





2

PREZİDENT İLHAM ƏLİYEV: "Ermənistanın sülh danışıqlarına maneçilik törətməsi qəbuledilməzdir"

## Ermənilərin insanlığa qarşı hərbi cinayətləri:

# Meşəli qətliamı!




5

**"Müttəfiqliyimiz bölgədə sabitliyin qorunmasında vacib rol oynayır"**



3

**Humanitar yardım adı altında TAMAŞA, AXMAQLIQ, YOXSA AMBİVALENTLİK?**




7

**Kitab oxumaq reytinqindən çox uzaqlarda...**



8



**Xaçaturyanın həbsindən "Milli Şura" niyə narahatdır?**

11

**Əzadar uşaqlar və bitməyən yas**



14

# Azərbaycan diplomatiyası və beynəlxalq birlik

## PREZİDENT İLHAM ƏLİYEV: "Ermənistanın sülh danışıqlarına maneçilik törətməsi qəbuledilməzdir"

İyulun 29-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə danışıqlar və bölgədə son vəziyyət müzakirə olunub. Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığında Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək, sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışmasının qəbuledilməz olduğunu söyləyib. Dövlətimizin başçısı Azərbaycan tərəfinin erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlı olduğunu, bu məqsədlə Xocalıda birinci görüşün keçirildiyini, ikinci görüş üçün isə Azərbaycanın təklifinin təqdim edildiyini xatırladıb.

Ermənistan tərəfinin atdığı təxribatçı addımların sülh prosesinə maneçilik törətdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir. Dövlətimizin başçısı Ermənistan tərəfinin Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd edilməsini, icazəsiz yük avtomobillərinin Azərbaycana göndərməsini qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bütün təkliflərə qarşı çıxıb. Ermənistan tərəfinin ”Humanitar vəziyyət” və ”blokada” ilə bağlı iddiaları siyasi manipulyasiyadır.



### ANTONİ BLİNKEN: ”ABŞ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstək göstərir”

ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə telefon danışığı zamanı, ABŞ-ın Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Göründüyü kimi, bu gün Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən olan ABŞ münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı ABŞ-la əməkdaşlığın inkişafına hər zaman xüsusi yer verir. Ölkələrimiz arasında enerji, nəqliyyat, infrastruktur, kommunikasiya və digər sahələrdə güclü əlaqələr mövcuddur. Xüsusilə Azərbaycanın Amerika ilə münasibətləri son illərdə strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib.

### ”ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN NORMALLAŞDIRILMASINDA ABŞ-IN SƏYLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRİRİK”

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-nın Prezidenti Cozef Baydenə ABŞ-ın milli bayramı - Müstəqillik Günü münasibətilə ünvanlandığı təbrik məktubunda vurğulanır ki, haazırda Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün əlverişli şərait formalaşmışdır. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsinin hazırlanması prosesində ABŞ-ın səylərini yüksək qiymətləndiririk.

Dövlətimizin başçısı vurğulayıb ki, bu gün bir sıra sahələrdə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ABŞ-la əlaqələrimizi daha da genişləndirmək əzmindəyik: ”Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-ABŞ tərəfdaşlığının inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik”.

### BƏLİ, BU GÜN AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YÜRÜTDÜYÜ DİPLOMATİYA BEYNƏLXALQ BİRLİK VƏ BÖYÜK GÜCLƏR TƏRƏFİNDƏN TƏQDİR EDİLİR

Bir vaxtlar özünün daxili enerji tələbatını ödəmək gücündə olmayan, yalnız idxal gücünə ayaqda dayanan Azərbaycan indi təkcə mövcud olduğu yox, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təminatında olduqca mühüm rol oynayır və bu, ölkəmizin beynəlxalq birliyin daim xüsusi diqqət mərkəzində qalmasının səbəblərindən biridir. Həmçinin enerji təhlükəsizliyi təminatında Azərbaycanın rolunun gündən-günə artması ölkəmizlə dünya dövlətlərini, xüsusən də Qərbi bu sferada daha sıx əməkdaşlığa sövq etməkdədir. Buna əsas səbəb həm enerji ehtiyatları ilə kifayət qədər zəngin olan Azərbaycanın uzun müddət Avropanın enerji tələbatının ödənilməsində vacib rola malik tərəflərdən biri kimi çıxış etməsi, həm də Azərbaycanın iştirakı olmadan Mərkəzi Asiyadan başlayaraq, Qafqazı keçməklə Türkiyə və Avropa istiqamətində uzanan enerji layihələrinin reallaşdırılmasının mümkünsüzlüyüdür. Yəni Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır.

Bu yerdə cari ilin may ayının 31-də ABŞ Prezidenti Cozef Baydenin Bakıda keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubda da qeyd olunur ki, enerji təhlükəsizliyi ilə bağlı məqsədlərə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynayıb: ”Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda Azərbaycan ”Cənub Qaz dəhlizi” vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır”.

Bundan əlavə, Amerika prezidentinin məktubunda o da vurğulanır ki, ”Cənubi Qafqazda təhlükəsizliyin və rifahın təşviqinə kömək edəcək davamlı və ədalətli sülhü dəstəkləməyə davam edəcəyik. Qarşıdan gələn illərdə əməkdaşlığımızın davamlı olacağına ümid edirəm”.

### BƏLİ, BÜTÜN BUNLAR TƏKCƏ ABŞ DÖVLƏTİNİN MARAQLARINA GÖRƏ DEYİL, HƏM DƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSUNUN UĞURLU NƏTİCƏLƏRİDİR

Və bu siyasətin həyata keçirilməsi gənc müstəqil Azərbaycanın siyasi-diplomatik nailiyyətlərini gündən-günə artırır. Müstəqilliyin geridə qalan dövrlərində Azərbaycan - ABŞ əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin daim inkişaf etməsi də məhz həmin uğurlar sırasındadır. 1993-cü ilin yayından etibarən Vaşinqton -Bakı münasibətləri daim yüksələn xətlə inkişaf edib.

Dostlarımız da, bədxahlarımız da şahiddirlər ki, Azərbaycan -ABŞ əməkdaşlığı cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Məsələn, enerji təhlükəsizliyi, beynəlxalq terrorizmə, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə sahəsində iki ölkə arasında geniş əməkdaşlıq mövcuddur. Xüsusilə vurğulanmalıdır ki, ABŞ və Azərbaycan Avropanın enerji təhlükəsizliyində yaxından iştirak edirlər. Xüsusilə xatırladılmalı məqamlardan biri də odur ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini tanıyır və daim dəstəkləyir.

Dövlət başçımız dəfələrlə xatırlatmışdır ki, 2001-ci ildə Nyu-Yorkda törədilən 11 Sentyabr terror hadisəsindən sonra rəsmi Vaşinqtonun öz yanında gördüyü ilk dövlətlərdən biri məhz Azərbaycan olmuşdur. Ölkəmiz ABŞ rəsmilərinin təşəbbüsü ilə yaradılan antiterror koalisiyaya ilk qoşulanlardan biri kimi dostluğa və tərəfdaşlığa sədaqət nümayiş etdirmişdir.

Bir sözlə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü diplomatiya beynəlxalq birlik və böyük güclər tərəfindən təqdir edilir. Xüsusilə də, dövlət başçımızın enerji diplomatiyası və bu istiqamətdəki bütün layihələri ölkənin iqtisadi potensialını gücləndirir, eləcə də neft-qaz sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan enerji ehtiyatlarının ixracı sahəsində ölkənin milli maraqlarına tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən siyasət həyata keçirir. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim xüsusi maraq göstərilir və ölkəmizin mövqeyi ilə daha çox hesablaşırlar. Bir sözlə, dövlət başçımızın dediyi kimi: Azərbaycan ilə ABŞ arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

*RƏFİQƏ KAMALQIZI*

# Serbiyanın ”RTS” telekanalı Ağdamdakı mina probleminə dair reportaj yayımlayıb



Serbiyanın ”RTS” radio-televiziya kanalı Ağdamdakı mina problemi ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Ağdamın Qarabağ iqtisadi rayonunun minalarla ən çox çirklənmiş şəhəri olduğu, minaların onilliklər sonra da təhlükə yarada biləcəyi bildirilir.

Vurğulanır ki, müharibə başa çatsa da, regionda minalarla bağlı təhlükə bitmir. Qarabağ iqtisadi rayonunun ən böyük şəhəri olan Ağdamda həyatın yenidən bərpası üçün minatəmizləmə işləri fasiləsiz həyata keçirilir. 2020-ci ilin noyabrından bu vaxtadək on minlərlə mina və partlayıcı sursat məhv edilib. Bununla belə minatəmizləmə prosesi hələ uzun müddət davam edəcək.

”Təxmini vaxt demək çətindir. Çünki ərazi tamamilə minalarla çirklənib. Bəzi bölgələrin təhlükəli olmadığını düşünürsən, lakin qazmağa başlayanda minalarla rastlaşırsan və onların sayı gözləniləndən çoxdur. Biz minatəmizləmə əməliyyatlarına başlayanda cəmi 40-a yaxın istehkamçı var idi. İndi isə maşınlardan və xüsusi təlim keçmiş itlərdən istifadə edən 250-dən çox insan ərazidə işləyir”, - deyə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı Xaliq Zülfüqarov deyib.

Reportajda pilotsuz uçuş aparatları vasitəsilə yerin səthinə yaxın və ya yerdə olan partlayıcı qurğuların aşkarlandığı bildirilir, minatəmizləmə prosesinin isə illər çəkəcəyi qeyd olunur. Həmçinin vurğulanır ki, 2020-ci ildən indiyədək Qarabağda mina və partlayıcı qurğular nəticəsində həlak olanlar arasında hərbi qulluqçularla yanaşı, mülki şəxslər də var.

# “Müttəfiqliyimiz bölgədə sabitliyin qorunmasında vacib rol oynayır”

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri görüşüblər

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Hakan Fidanla görüşüb. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Ceyhun Bayramov və Hakan Fidan arasında təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.**

Geniştərkibli görüşdə Azərbaycan və Türkiyə arasında çoxşaxəli ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən bölgədə mövcud vəziyyət müzakirə olunub. Nazir Ceyhun Bayramov qardaş Türkiyə ilə müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və sair sahələr üzrə münasibətlərin inkişaf dinamikasının məmnunluq doğurduğunu qeyd edərək, dostluq, qardaşlıq, qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan müttəfiqlik əlaqələrimizin bölgədə sabitliyin qorunmasında vacib rol oynadığını diqqətə çatdırıb.

Təməlində Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamının dayandığı qardaşlıq münasibətlərimizin inkişafında ölkələrimizin liderləri arasında qarşılıqlı təmasların mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb.

Cari ildə imzalanmasının ikinci ildönümünü qeyd etdiyimiz ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin ölkələrimiz arasında münasibətlərin inkişaf tarixində yeni mərhələnin əsasını qoyduğunu bildirən nazir Ceyhun Bayramov bundan sonra da əlaqələrimizin genişləndirilməsi istiqamətində əməli addımların atılacağını əminliklə vurğulayıb. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanın sülh gündəliyinin 3 istiqaməti olan sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması sahələrində apardığı fəaliyyəti, habelə Ermənistanın mövcud sülh gündəliyinin irəlilədilməsinə hədə törədən təxribatları barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Ermənistanın destruktiv mövqeyi və addımlarına baxmayaraq, Azərbaycanın sülh gündəliyini irəli aparmaq əzmində və niyyətində olduğu diqqətə çatdırılıb.



Türkiyənin xarici işlər naziri Hakan Fidan ortaq tarixə, mədəniyyətə və dəyərlərə sahib ölkələrimiz arasında mövcud münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb. İki ölkənin ən çətin günlərdə daim bir-birini dəstəkləməsinin qardaşlığımızın yalnız sözdə deyil, əməldə də öz təsdiqini tapmasının göstəricisi olduğu bildirilib. Azərbaycan tərəfindən bölgədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, o cümlədən sülh gündəliyinin irəlilədilməsi istiqamətində görülən işlərin bölgədə davamlı sülhün bərqərar edilməsində mühüm rol oynadığı vurğulanıb.

Görüş zamanı, eyni zamanda, beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Orta Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin, eləcə də digər çoxtərəfli təşəbbüslərin daha da genişləndirilməsinin əhəmiyyəti nazirlər tərəfindən vurğulanıb.

# Soyqırıma məruz qalan məscidlərimiz

Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı ərazi iddiaları ilə yanaşı, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənilər vəhşilik missiyalarını həyata keçiriblər. Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələri - Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi.

Qərbi Azərbaycan ölkəmizin qədim bölgələrdən biridir. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bir dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı əsl müsəlman şəhəri kimi təsvir etmişlər. İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlığı üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli,



Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. XIX əsrin sonları, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi.

Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Tarixi mənbələrdə qeyd olunduğu kimi, müxtəlif dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən ”Sərdar”, ”Abbas Mirzə”, ”Şah Abbas” kimi məscidlərinin adları çəkilir. Rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını ürək ağrısı ilə təsvir etmişdir.

### ZƏNGƏZUR VƏ İRƏVAN QUBERNİYASININ ƏRAZİSİNDƏ MƏSCİDLƏR

Qeyd edək ki, 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məhəllə məscidləri Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seydlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərib. Ümumilikdə İrəvan quberniyasının Eçmiədzin uyezdində 36 məhəllə məscidi, Sürməli uyezdində 47 məhəllə məscidi, Şərur-Dərələyəz uyezdində 63 məhəllə məscidi, Novobayəzed uyezdində 14 məhəllə məscidi, İrəvan uyezdində 54 məhəllə məscidi fəaliyyət göstərib. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

1810-cu illərdə inşa edilmiş Sərdar məscidindən Rus işğalından sonra müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Ruslar İrəvan qalasını işğal etdikdən sonra (1827) Abbas Mirzənin inşa etdirdiyi məscid 2008-ci ildə tamamilə sökülmüşdür. Məscid on səkkizinci əsrin əvvəllərində İrəvan xanı Hüseynqulu xan Sərdarın hakimiyyəti dövründə inşa edilmişdir. Məscid Qacar şahzadəsi və Azərbaycan hakimi Abbas Mirzənin adı ilə adlandırılmışdır. Məscidin fasadı göy və yaşıl kaşılarla bəzədilmiş, mərkəzi hissəsi gözəl gümbəzlə örtülmüşdü. İrəvan xanlığının Çar Rusiyası tərəfindən işğalından sonra məscid cəbbəxana kimi istifadə edilmişdir. Daha sonra isə bir müddət rus əsgərlərinin sığınacağı olmuşdur. Ermənistan SSR qurulduqdan sonra isə məscid tamamilə məhv edilmiş və dövrümüzə yalnız bir divarının qalığı çatmışdır. İrəvan qalası içərisində və Sərdar sarayı yaxınlığında yerləşdiyi üçün Sərdar məscidi adlandırılıb. İrəvan qalasının çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı Abbas Mirzə məscidi kimi hallandırılır.

### ”ERMƏNİSTANIN MƏQSƏDİ ƏSRLƏR BOYU HƏMİN ƏRAZİLƏRDƏ YAŞAMIŞ AZƏRBAYCANLILARIN İZİNİ SİLMƏK OLUB”

Mənbələrdə qeyd olunur ki, alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və Qalada olan iki məsciddən birinin rus-yunan kilsəsinə, digərinin - Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir. 1864-cü ildə İrəvan qalasından rus qoşunlarının hərbi-istehkam məqsədilə istifadəsinə son qoyulduqdan sonra qaladakı tarixi-memarlıq abidələri, o cümlədən Sərdar, yaxud Abbas Mirzə məscidi ciddi dağıntılara məruz qalmışdır. Sərdar məscidində Osmanlıdan köçmüş erməni qaçqınları məskunlaşdırılmış, sovet dövründə isə məscid hissə-hissə dağıdılmışdır. 1918-ci ildə ermənilər İrəvanın Müsəlman əhalisini məscidə doluraraq məscidlə birgə yandırmışlar. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikimişdir. Günümüzdə yerində yaşayış evləri tikilmiş və 2014-cü ilin noyabr ayında tamamilə yox edilmişdir.

Prezident İlham Əliyev çıxışlarında ermənilərin vandallıq əməllərini ifşa etmişdir. ”İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib”, - deyərək bildirib ki, Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub. Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesinin 90-cı illərdən sonra geniş vüsət alıb. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var. Utopik fikirlərlə yaşayan Ermənistan öz xülyalarından əl çəkərək, tarixi həqiqətləri qəbul etməlidir. Sanki düşüncələri ilə öz dünyalarında ”Böyük Ermənistan” yaradırlar. Sənəd, tarix və faktlar bu ”xalq”a yad olan məfhumlardır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Müharibə veteranlarına dövlət qayğısının növbəti nümunəsi

## Prezident İlham Əliyevin iyulun 27-də imzaladığı Sərəncama əsasən, yeni tədris ilindən müharibə veteranlarının təhsil haqqı dövlət tərəfindən ödəniləcək



Azərbaycan artıq 32 ildir ki, müstəqildir. Müstəqilliyin qazanılmasında və qorunub saxlanılmasında ölkəmizin ərazi bütövlüyü uğrunda savaşlarda qanı və canı ilə iştirak edənlərin xüsusi rolu var. Bu savaşlarda fiziki sağlamlığını itirənlər də, döyüşlərdə şəhid olanların ailələri də müstəqilliyin bəhrəsini dövlətin qayğısı ilə təmin olunmaqla görür. Bu qayğı davam edəcək. Ölkəmizin sosial siyasətində Qarabağ savaşının iştirakçıları - əlillər və şəhid ailələri xüsusi qayğıya ehtiyacı olan vətəndaşlar hesab olunur.Məhz Prezident İlham Əliyev iyulun 27-də imzaladığı Sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi mexanizminin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncamı bir daha dövlətin veteranlara göstərdiyi qayğının göstəricisidir.Sərəncama əsasən, Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək.Nazirlər Kabinetinə sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Sərəncam 2023-cü il sentyabrın 1-dən qüvvəyə minəcək.

### DÖVLƏTİN SOSİAL SİYASƏTİNDƏ ŞƏHİD AİLƏLƏRİNİN, MÜHARİBƏ ƏLİLLƏRİ VƏ VETERANLARININ HƏYAT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI PRİORİTET MƏSƏLƏDİR

Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən dövr ərzində əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmiş və mühüm uğurlar əldə olunmuşdur. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı Dövlət proqramları, böyük layihələr həyata keçirilmişdir. Ölkə başçısının rəhbərliyi ilə uğurlu sosial siyasətin həyata keçirilməsi ilk növbədə belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Cənab Prezident hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Dövlətin sosial siyasətində şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının həyat şəraitinin yaxşılaşdırılması isə prioritet məsələdir. Şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına dövlət qayğısının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin layiqli davamçısı, dövlət başçısı İlham Əliyev də müharibə əlillərinin, şəhid ailələrinin problemlərinə hər zaman həssaslıqla yanaşıb. Ölkə başçısının tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında Fərman imzalaması xüsusi önəm daşıyır. Bu Fondun yaradılması həm Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, həm də şəhid ailələrinin təminatına hərtərəfli dəstək verilməsi baxımından vacibdir. Fondun yaradılması eyni zamanda cəmiyyətimizə də vacib bir mesaj verir. Belə ki, şəhid ailələrinə, qazilərə göstərilən qayğını, diqqəti hiss edəndə vətəndaşlarımızın Vətənə, xalqa bağlılığı daha da yüksələcək, insanlarımızda vətənpərvərlik duyğuları daha da artacaq. Təbii ki, Əmək və Əhalilinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cənab Prezidentin göstərişinə əsasən müəyyən məsələlər, o cümlədən şəhid ailələrinə vəsaitin verilməsi, evlərin tikilməsi, qazilərimizə müəyyən vəsaitin ödənilməsi öz həllini tapır.







### AZƏRBAYCAN SOSİAL DÖVLƏTDİR VƏ BİZ BUNU SÖZLƏ YOX, ƏMƏLİMİZLƏ TƏSDİQLƏYİRİK

Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas başlıca hədəfi insanların sosial rifahının yaxşılaşdırılmasıdır. Ötən il bu istiqamətdə yürdülən siyasət nəticəsində əhatəli sosial müdafiə tədbirlərini həyata keçirib və əhalinin sosial rifah halı daha da yaxşılaşıb. Prezidenti İlham Əliyevin yanvarın 5-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" imzaladığı müvafiq Sərəncamla əhalinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlərin icrası nəzərdə tutulub. Belə ki, minimum əmək haqqının 300 manatdan 345 manata qaldırılması, minimum pensiya məbləğinin 280 manata çatdırılması, müavinət və təqaüdlərin artırılması bir daha təsdiqləyir ki, Azərbaycanın sosial dövlət modeli nümunəvi və uğurludur.

### İKİNCİ DÜNYA MÜHARİBƏSİ İŞTİRAKÇILARINA PREZİDENT TƏQAÜDÜ 330 MANATA ÇATDIRILIB

Prezident İlham Əliyev 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 330 manat müəyyən edilsin.İndiyə qədər həmin şəxslərə verilən Prezident təqaüdünün aylıq məbləği 300 manat idi.

### ŞƏHİD AİLƏSİ ÜÇÜN PREZİDENT TƏQAÜDÜNÜN MƏBLƏĞİ 600 MANAT MÜƏYYƏN EDİLİB

Prezident İlham Əliyev şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.Fərmana əsasən, şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilib. Bəli, bütün bu görülən işləri, məhz Azərbaycan Prezidenti İlham Əliyev bunu sözdə yox, əməldə göstərib. Yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev sosial sahənin çoxşaxəli olduğunu qeyd edərək deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar: "Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək". İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edildiyini söyləyən dövlət başçısı söyləyib ki, cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir.

Bəli, sözü ilə əməlləri üst-üstə düşən Azərbaycan Prezidenti İlham Əliyev iqtisadi və sosial sahə həmişə paralel getməlidir: "Ona görə də, hələlik, limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir". Bir sözlə, bütün bu uğurlu işlər onu göstərir ki, dövlət Vətən Müharibəsi Qəhrəmanlarına və ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi yönündə bundan sonra da sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq. Dövlət başçımızın dediyi kimi: "Qəhrəman döyüşçülərimiz gələcəkdə də daim mənim nəzarətim altında olacaqlar".

**RƏFİQƏ HÜSEYNOVA**

# Ermənilərin insanlığa qarşı hərbi cinayətləri:

# Meşəli qətliamı!

Hər dəfə Ermənistanın qanunsuz, beynəlxalq konvensiyalara zidd əməllərindən, xalqımıza qarşı törətdikləri qətliam, soyqırımı və faciələrdən yazarkən böyük bir xalqın kiçik bir "dövlət"in terrorizminə, vandallığına məruz qaldığını görürük. Yaşadığımız acı nəticələr xalqımızın tarixinin müxtəlif dönəmlərində 200 ilə qədər olan tarixində silinməz izlər saldığı hər kəsə yaxşı bəllidir. Xocalı soyqırımı, 31 Mart Azərbaycanlıların Soyqırımı, Başlıbel faciəsi və digər yaşadığımız qətliamlar ermənilərin insanlarımıza nə qədər acılar və ağrılar yaşatdığını ortaya qoyur. Hadisələrin gedişi göstərir ki, təkrarlanan bu hadisələr ermənilərin "Böyük Ermənistan" yaratmaq istəklərini reallaşdırmaq, özgə torpağı üzərində "ərazisini" genişləndirmək niyyəti daşıyır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. Tarixin müxtəlif dönəmlərində torpaq itkilərinə, fəlakət və böyük dağıntılara məruz qalan Azərbaycana sarsıdıcı zərbələr vurmaqda davam ediblər.










Tarixdən məlumdur ki, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri bağlanıldıqdan sonra ermənilər kütləvi surətdə Azərbaycan ərazilərinə yerləşdiriliblər. Bu siyasət uzun illəri əhatə etmiş və ermənilər Azərbaycan torpaqları hesabına öz coğrafi ərazilərini kifayət qədər genişləndirə bilmişlər. Ötən əsrdə 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan çıxarıldı, daha sonra isə 1988-ci ildə kütləvi qırğınlarla müşayiət olunan deportasiyaya məruz qaldılar. Təbii ki, doğma el-obasından qovulan azərbaycanlılar həm insan, həm də böyük maddi itkilərə məruz qalmış oldular. Ötən əsrin son illərində erməni təcavüzkar siyasətinin məntiqi olaraq məlum tarixi torpaqlarımız işğal olundu. Statistik rəqəmlərdə qeyd olunduğu kimi, təcavüz nəticəsində 20 minə yaxın azərbaycanlı qətlə yetirilib, 100 min nəfər yaralanıb, 50 mindən çox adam əlil olub. Bu rəqəmlərdən aydın olur ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilik, vandallıqdır. Ermənistan işğal etdiyi ərazilərdə (işğal dövründə) 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 minə yaxın ev, 1025 məktəb, 798 səhiyyə obyekti, eləcə də 927 kitabxana, 100-dən artıq arxeoloji abidə, həmçinin 454 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı erməni təcavüzünün qurbanı olubsa, demək təcavüzkar "xalq"ın vandallığı açıq-aydın özünü göstərmiş olur.

Dinc azərbaycanlı əhalisi öz dədə-baba torpaqlarından amansız işgəncələrə məruz qalaraq qovuldu, evləri yandırıldı, minlərlə insan, o cümlədən uşaqlar, qadınlar və qocalar qətlə yetirildi, girov götürülüb əsirliyin bütün acılarını yaşadılar, itkin düşdülər. Azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirildi. Təkcə Qaradağlı kəndində 80 nəfərdən çox dinc azərbaycanlı, o cümlədən uşaqlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülüb, onlarca adam girov götürülüb, kənd isə yandırılaraq yer üzündən silinib.

## 8 NƏFƏR 90-100 YAŞLI QOCA, 2 NƏFƏR AZYAŞLI UŞAQ, 7 NƏFƏR QADIN DİRİ-DİRİ ODDA YANDIRILDI

1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Ağdaban soyqırımı zamanı bütöv bir kənd tamamilə yandırıldı, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verildi və yurdundan didərgin salındı. Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivinə od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin ən kədərli, sözlə ifadəsi çətin olan səhifəsidir.

Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına dair konvensiyalara sığmayan faciəyə "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsi ilə "Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradılıb. Komitə, qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır. Bu faciələr sırasında Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olan Başlıbeldə törədilən qətliamı daa yer alıb. 1993-cü ilin aprel ayının 2-də baş verən hadisə zamanı Başlıbelin kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsalar da, buna nail ola bilməyiblər. Bu zaman sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 5 nəfər girov götürülüb. Digər 62 nəfər isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçiblər. Həmin gecə kənddən bir qədər yuxarıda yerləşən "Portda" kahalarına sığınmış sakinlərin üzərinə amansız hücum zamanı dinc sakinlərdən 14 nəfər girov götürülüb, 18 nəfər qətlə yetirilib. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara dəyişərək mühasirə həyatını davam etdirib. Onlar 113 gündən sonra, iyulun 17-də sığınacağı tərk edərək yalnız gecələr hərəkət etməklə gizli dağ yolları vasitəsilə Ermənistan ordusunun mühasirəsindən çıxa biliblər.

## "MƏN ƏMİNƏM Kİ, GÜN GƏLƏCƏK XOCALI FACİƏSİNİ TÖRƏDƏN, DİNC ƏHALİYƏ QARŞI QƏDDARLIQ GÖSTƏRƏN, DİNC ƏHALİNİ MƏHV EDƏN ERMƏNİ CİNAYƏTKARLARI MƏHKƏMƏ QARŞISINDA CAVAB VERƏCƏKLƏR"

Əlbəttə ki, bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi soyqırım, genosid deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu bu cür soyqırıma məruz qalmışdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələlər yaşamışdır. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi.

Ardı Səh. 6

Əvvəli Səh.5

# Ermənilərin insanlığa qarşı hərbi cinayətləri:
# Meşəli qətliamı!

1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb.

Xocalı rayonunun Meşəli kəndində törədilmiş kütləvi qətliam Xocalı soyqırımına hazırlıq kimi - Meşəli faciəsinə dünya birliyi tərəfindən heç bir reaksiyanın olmaması erməni faşistlərinin 1992-ci il fevralın 26-da daha geniş miqyaslı soyqırım törətməsi üçün zəmin yaratdı. Ermənistan hərbi birləşmələri tərəfindən Xocalı rayonunun Meşəli kəndində törədilən faciə də tariximizdə ermənilərin vəhşiliyindən söz açır. Erməni hərbi birləşmələri 1991-ci il dekabrın 23-də səhər saat 07:00 radələrində Meşəli kəndinə hücum ediblər. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, kənd sakinləri ermənilərə inadla müqavimət göstərib. Bir neçə saat davam edən atışmadan sonra erməni quldurları kəndə girərək evlərə, tövlələrə, ot tayalarına od vurub, 8-i qadın, 3-ü uşaq olmaqla, 28 nəfəri qətlə yetirib, 14 nəfəri yaralayıblar. Meşəli kəndi həmin gün Şuşa və Xocalıdan köməyə gələn qüvvələr tərəfindən azad edilsə də, bir ay sonra yenidən erməni hərbi birləşmələri tərəfindən işğal edilib. Meşəlinin əhalisindən 358 nəfər məcburi köçkün olmuş, kənd özü məhv edilmişdir. Qətliamda Meşəli kəndində 5,496,900 manat məbləğində maddi ziyan vurulmuşdur. 29 iyul 2023-cü ildə Meşəli qətliamında iştirak etməkdə ittiham olunan, Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə hərəkət edən Vaqif Xaçaturyan Laçın sərhəd-keçid məntəqəsində Azərbaycan sərhəd xidmətinin nümayəndələri tərəfindən saxlanılmışdır.

O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilmişdi və beynəlxalq axtarışa verilmişdi. Ermənistan tərəfi bunu "adam oğurluğu" kimi qiymətləndirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarından birində bildirmişdi: "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir". Bu gün Meşəli soyqırımı iştirakçısının saxlanılması bir daha göstərir ki, Azərbaycan dövləti dinc əhaliyə qarşı törədilmiş vəhşilikləri unutmayıb və xalqımıza qarşı soyqırımda əli olan cinayətkar məsuliyyətdən yaxa qurtara bilməyəcəklər.



Ermənistan XİN-nin V.Xaçatryanın saxlanmasına etiraz etməsi bu ölkənin hərbi cinayətləri dövlət səviyyəsində açıq şəkildə dəstək verməsi deməkdir. Bu, bir daha göstərir ki, sözdə guya Azərbaycanla sülh müqaviləsinin imzalanmasını, mehriban qonşuluq münasibətlərinin qurulmasını "istəyən" hazırkı Ermənistan iqtidarı, əslində azərbaycanlılara qarşı soyqırımda əli olmuş şəxsləri müdafiə etməklə, onların törətdiyi cinayətlərə bəraət qazandırmağa çalışır. Azərbaycan dövləti 90-cı illərin əvvəllərində azərbaycanlılara qarşı vəhşiliklər törətmiş şəxslərin təqib olunması və cəzalandırılması üçün səylərini davam etdirəcək.



### ŞƏHİD KƏND VƏ ŞƏHƏRLƏRİN, FACİƏ, SOYQIRIMI QURBANLARININ QİSASI ALINDI

Bu gün şəhid kənd və şəhərlərin, faciə, soyqırımı qurbanları olanların qisası alındı. Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü. rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. İşğal altında olan şəhər, kənd və qəsəbələrimiz Azərbaycan ordusu tərəfindən azad olundu. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə sona çatdı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan məğlub edildi.

Ermənistan ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq əməllərinin şahidi olduq. Ən dəhşətlisi gecə yatmış insanlara qarşı belə cinayətin törədilməsi zamanımızın qaniçənliyidir, bu insanlar yer üzünün lənətlənmişləridir. Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Elə Bərdə də yaşanılan hadisələr ermənilərin faşist əməllərini təsdiqlədi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələrini endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Vətən müharibəsində dünyanın gözü qarşısında cinayətlər törədən ermənilər bir daha faşist ideologiyalarını ortaya qoymuş oldular.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Humanitar yardım adı altında

## TAMAŞA, AXMAQLIQ, YOXSA AMBİVALENTLİK?




Paşinyan hökumətindən soruşmaq yerinə düşərdi ki, humanitar yük adı altında karvanı göndərəndə nəyə arxalanırdı? Bəlkə həmin o karvanın keçib gedəcəyi, saxlanılmayacağı, geri dönmək məcburiyyətində qalmayacağı barədə vəd verilmişdi? Axı belə bir vədin verilməsi mümkün deyildi, çünki nə Rusiya, nə də Qərb ölkəmizin yerinə qərar qəbul edə bilməzdi və Ermənistan tərəfinin göndərdiyi karvanın saxlanılması Azərbaycanın öz işidir, suveren hüququdur. Elə isə rəsmi Bakıdan bu barədə heç bir icazə istəmədən, məlumat belə vermədən Paşinyan hakimiyyətinin yardım adı altında karvanı göndərməsinə nə ad vermək olar? Bu addıma axmaqlıq belə demək olmur, çünki bu addımda, belə bir qərarın verilməsində uyğunsuzluq, psixi pozğunluq, sadə dildə desək, dəlilik simptomları görünür.

Qatara bilet almadan dəmiryol vağzalına yollanan, hara isə səfər edəcəyinə ümid edən kimsənin psixi cəhətdən pozğunluğu kimdə isə şübhə doğura bilərmi? Qətiyyən şübhə doğura bilməz, çünki uyğunsuz, məntiqsiz, normadan kənar addım atıldığının fərqində olmaq buna imkan verməz. Məhz elə bu məsələ müvafiq olaraq, yenə də bütün dünya ictimaiyyəti növbəti dəfə Paşinyan hökumətinin uyğunsuz addımını, normadan kənar hərəkətini müşahidə etdi və sözsüz ki, buna don geyindirmək istəyən ermənipərəstlərin belə elə onlarla "eyni ağılda", daha doğrusu, eyni ağılsızlıq həddində olduğunu da təkzib etmək mümkün deyil. Çünki şizofreniyanın əlamətlərindən biri də uyğunsuzluq hesab olunur və buna ambivalentlik deyilir.

Əsrin üçdəbirinə yaxın müddət ərzində ərazilərimizin ermənilər tərəfindən işğal altında saxlanılması və həmin torpaqları özlərininki etmək istəklərinin axmaqlıq olduğu bizə bəlli idi və 44 günlük müharibə zamanı bu fakt bütün dünya üçün də bəlli oldu. Erməni əsgərlərin döyüş meydanından qaçdıqları halda, ordumuzun qarşısında diz çökdükləri, rüsvayçı şəkildə məğlub olduqları halda, rəsmi İrəvanın öz daxilində qələbə qazandıqları, irəlilədikləri barədə xəbər yaymalarına da axmaqlıq demək olar. Məğlub durumda, səfalət içərisində olan Ermənistanın hələ də reallıqları, məhz Azərbaycanın yaratdığı reallıqları dərk etməməsini də axmaqlıq kimi dəyərləndirmək mümkündür, amma Paşinyan hökumətinin sonuncu addımına, humanitar yük şousuna axmaqlıq belə demək olmur, çünki bu artıq dəlilik əlaməti kimi görünür. İrəvanda 400 ton mal toplanır, onlar erməni əsillilərin yaşadığı Azərbaycan ərazilərinə humanitar yardım adı altında göndərilir, amma bu barədə icazə bir yana, rəsmi Bakıya məlumat belə verilmirsə, bu, həqiqətən də, erməni baş nazirinin əqli, psixi problemlərindən xəbər verir və onun hakimiyyət komandasının da özü ilə eyni problemi yaşadığı anlamına gəlir. Gecə saatlarında Ermənistanın dövlət qurumları "Spayka" nəqliyyat şirkətini podratçı seçərək, yükləri həmin şirkətə məxsus maşınlara doldururlar və karvanın keçmə proseduru ilə bağlı rəsmi Bakıdan razılıq almadan, heç bir xəbərdarlıq belə olmadan dərhal Azərbaycan ərazilərinə yola salmaq qərarına gəlirlərsə, bu, axmaqlıqdan da böyük bir şeydir ki, buna dəlilik deyilir.

Maraqlıdır, Ermənistan tərəfinin, yaxud da Paşinyan hakimiyyətinin çıxardığı bu "tamaşa" nəyə lazım idi? Paşinyan hökumətinin səlahiyyətliləri humanitar yük adı altında göndərilən karvanın keçib gedəcəyinə həqiqətən də ümid edirdilərmi? Bəlkə elə zənn edirdilər ki, belə bir karvan elə yolda ikən dünya ictimaiyyətinin diqqətini çəkəcək və yüklərin buraxılması üçün Azərbaycana təzyiq ediləcək, yüklərin keçirilməsinə də nail olacaqlar? Yoxsa həqiqətən də Azərbaycan tərəfinin buna imkan verməyəcəyinə zərrə qədər də olsa şübhələri olub? Axı rəsmi Bakının iradəsinə bu zamana qədər dəfələrlə şahid olanlar belə bir şübhəyə də düşməməli idilər. Deyəsən, isti iyul günəşi Paşinyanın da, onun hakimiyyət komandasının da başına təsir edib, onları gün vurub və olmayan başlarını tamamilə itiriblər.

Əgər Azərbaycana məxsus olan Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsillilərə göstərmək istəyirlərsə ki, guya onlarla bağlı nə isə etmək istəyirlər, yenə də yanılırlar, çünki həmin ərazidə yaşayan ermənilər çoxdan başa düşüblər ki, onların taleyi rəsmi İrəvanı qətiyyən maraqlandırmır. Onlar yaxşı başa düşürlər ki, separatçılar da, Paşinyan hakimiyyəti də onlardan, sadəcə olaraq, istifadə etmək niyyətindədirlər. Deməli, göstərmək istədikləri də mənasızdır və bu tamaşanın heç bir mənası yoxdur. Bir sözlə, adama elə gəlir ki, Paşinyan hakimiyyəti paralel reallıqlarla yaşayır və mövcud reallıqlardan tamamilə uzaqdır. Əgər mövcud reallığı, Azərbaycanın yaratdığı reallığı görmürlərsə, yaxud görə, dərk edə bilmirlərsə, onlara qapıların açılmayacağını dərk etmirlərsə, deməli, həqiqətən də bu, onların psixi problemli olduqlarından xəbər verir.

Sərhədə çatan karvan sanki qəflətən bir reallıqla qarşılaşmalı oldu ki, icazə almaq lazım imiş. İcazə isə mümkün deyildi, çünki bunun da səbəbləri var. Azərbaycan öz ərazisində humanitar fəlakət elan etmədiyi və dünyaya yardım üçün üz tutmadığı halda, "humanitar yardım" olsa belə, onun idxalına niyə icazə verməli idi və görəsən bunu da erməni baş nazir və onun komandası anlamırdı? Anlamırdı ki, rəsmi Bakıya təzyiq həm faydasızdır, həm də mənasız? Həm də, əgər Vaşinqton Ağdamdan Xankəndinə gedən "alternativ" yoldan istifadənin mümkünlüyünü qeyd edirsə, o zaman humaniyar yük adı altında karvan niyə həmin yoldan istifadə etmirdi? Bəlkə Paşinyan və onun komandası yenə də özlərini axmaq yerinə qoymaq fikrindədir, amma onlar bilməlidirlər ki, bu, artıq axmaqlıqdan da betərdir və birmənalı şəkildə bunun adı dəlilikdir.

Eyni zamanda, eyni obyektə və ya eyni vəziyyətə qarşı əks emosional vəziyyətlərin hiss edilməsi ambivalentlikdir, hansı ki, bu halı Ermənistan hakimiyyətində dəfələrlə müşahidə etmişik və yenə də eyni şəkildə müşahidə etməli olduq. Əgər Azərbaycan hökuməti Ağdamdan Xankəndinə gedən "alternativ" yoldan istifadəni təklif edirsə, Qərb belə, Rusiya belə bunun tam məntiqi olduğunu etiraf edirsə, o zaman Ermənistan hökumətinin əks emosyanal vəziyyətinə ambivalentlikdən başqa bir ad qoymaq olmur. Diqqətə çatdıraq ki, fərqli emosional vəziyyətlərin eyni anda yaşandığı ambivalentlik onun ikili düşüncələrdə itməsinə səbəb olur və əgər Ermənistan tərəfi yenə də başının daşa dəydiyi qənaətindədirsə, bilməlidir ki, bunun da səbəbi var.

Ermənistan tərəfinin humanitar yük adı altında göstərdiyi tamaşa ilə bağlı sual doğuracaq məqamlar da həddən artıqdır. Həmin suallar məsələnin nə yerdə olduğunu da, Paşinyan və onun komandasının psixi problemlərinin olduğunu da, ambivalentliyi də açıb ortaya qoymuş olur. Maraqlıdır, həmin o yardımın niyə əvvəl, yəni ermənilərin törətdikləri təxribatdan, 15 iyun tarixindən etibarən Laçın postu ilə bağlı müvafiq qərar qəbul edildiyi zaman göndərilmədi və qaldı indiyə? Bəs niyə yardım göndərilməzdən öncə Rusiya Sülhməramlı Kontingentinə belə bu barədə xəbər də olsa verilmədi? Ən azından rus sülhməramlılarından yüklərinin keçiriləcəyi barədə "zəmanət" almadan yük göndərilməsi nə tamaşa idi və məqsəd nə idi? Yəni, məğlubiyyət acısı, ağrısı erməni başbilənlərinin başını belə xarab edib ki, atdıqları addımların fərqində də deyillər?

Kitab oxumaq indi xatırladığımız bir çox dəyərlər kimi keçmişdə qalıb. Artıq biz vaxtilə kitab oxumağımızdan şirin, lakin itirilmiş bir dəyərin xatirəsi kimi bəhs edirik. Hansı ki, biz sadəcə kitab oxumurduq, əslində kitab aludəçilərinə çevrilmişdik, desəm, yanılmaram. Bir kitabın bitməsində o biri başlayırdısa, o da bitən kimi axşama boş qalmamaq üçün kitabxanalara yeni kitablar dalınca yollanırdıqsa, bu, aludəçilik deyildimi? Həmin kitablar isə mənəvi qidamız olaraq bizi həmişə ”tox” saxlayırdı. Dünyanı, həyatı, sevgini, yaxşı-pisi, məhəbbət-nifrəti, sədaqət-xəyanəti, zəriflik-kobudluğu bu kitablar vasitəsilə öyrənirdik. Obrazlar bizə həyatda necə olmağı aşılayırdı, necə yaşamağı əxz edirdi. Yaxşının əksi olanların hər birinə nifrət etməyə, yaxşının hər birinə oxşamağa çağırırdı.

Bəli, sosial şəbəkələr həyatımıza daxil olmazdan əvvəl biz kitab oxuyurduq. Sanki birdən-birə o kitabları əlimizdən alıb çırıqlayıb vərəq-vərəq edib ətrafımıza səpələdilər. Əlimizdən alınan kitabların yerinə hər birimizə bir telefon verib sosial şəbəkəli etdilər bizi. Sanki bu, belə olmalı imiş. Belə də oldu. Qısa zaman kəsiyində o aludəçiliyimiz bu aludəçiliklə əvəz olundu. Biz vərəqlərində göz yaşımız, səhifələri arasında çiçəklərimiz, səhifələrində gələcəyə qurduğumuz xəyallarımız qalan kitabları elə büküb bir küncə atdıq ki, bir də ona yaxın düşüb içində itirdiklərimizi axtarmağa belə cəhd etmədik. Lakin yaxın gələcəkdə bu səhvimizin acısını yaşayacağıq, bu, sözsüzdür. O kitablarda itirdiklərimizi axtaracağıq. Lakin təəssüf ki, nə o kitabları, nə də içində itirdiklərimizi bir daha tapmayacağıq...

### Təəssüf: oxumaq vərdişini qazandıq, sonra itirdik

Hər hansı müsbət vərdişi qazanmaq illər hesabına əldə olunur. Bu, heç də asan məsələ deyil. Elə kitab oxumaq vərdişinə də illərlə nail olmuşduq. Bu, hər birimizin qaçılmaz vərdişinə çevrilmişdi. Daha sonra bu vərdişin itirilməsi isə sanki ən dəyərli bir əşyamızı itirdik desəm, az olar. Bunu ən vacib bir orqanımızın, məsələn, beynimizin, ürəyimizin itirilməsi kimi dəyərləndirmək olar. Çünki biz beyinsiz, ürəksiz necə yaşaya bilériksə, kitab oxumadan da o cür yaşamış oluruq. Bu müqayisəni boş yerə gətirmədim. Yəni kitab oxumağın bədənimizdəki aparıcı bir orqan kimi düşünülməsinin daha doğru olduğu üçün ondan bəhs etdim.

İndi kitab oxumuruq, fərqinə varsaq, gündən-günə sanki beyinsizləşirik, ürəksizləşirik. Beynimiz hər gün saatlarla sosial şəbəkələrdə oxşar videolara ”baxmaqla” kütləşir. Dəyərsiz videoları dəfələrlə izləməkdən artıq ürək kimi həyati dəyərli orqanımızı da itirməkdəyik. Çünki bir hadisəni o qədər görürük ki, o, bizim üçün adiləşir. Hər hansı bir halın adiləşməsindən dəhşətli isə heç nə yoxdur. Sanki gənclər ta nə əvvəlki kimi sevir, nə də əvvəlki kimi nifrət edir. Bütün hadisələrə sanki əvvəlki həssaslıqla yanaşmırıq. Uzun sözün qısası, həyatımızda adiləşmə adlı bir proses gedir. Bu prosesin sonunda nə ilə qarşılaşacağımızın isə indidən qığılcımları görünməkdədir. Kitab oxumaq kimi vərdişin itirilməsi, onun yerini alan yersiz alışqanlıqların nəticəsini yaxın gələcəkdə bizə həyat özü anladacaq...

### Azərbaycan kitab oxumaqda çox geridə qalır...

Təbii ki, kitab oxumaq vərdişləri tək Azərbaycanda deyil, bütün dünyada əvvəlki kimi deyil. Lakin dəhşətli hal ondan ibarətdir ki, biz dünyada bu sahədə ən geridə qalmış ölkəyik. Bu barədə araşdırma apararkən belə bir məlumatla qarşılaşdım ki, Böyük Britaniyada yerləşən ”NOP World Culture Score Index”in tərtib etdiyi məlumatlara görə, dünyada ən çox kitab oxunan ölkə Hindistan, Tayland və Çindir. Dünyanın ən çox kitaba sahib ölkəsi olaraq siyahının başında olan Hindistanda hər bir insan həftədə orta hesabla 10 saat 42 dəqiqə kitab oxuyur. İkinci yerdə olan Taylandda adambaşına həftədə orta kitab oxuma vaxtı 9 saat 24 dəqiqə olduğu halda, üçüncü yerdə olan Çində insanlar buna həftədə 8 saat ayırır.



ARAŞDIRMA

# Kitab oxumaq reytinqindən çox uzaqlarda...

Siyahıda ən çox kitab oxunan digər ölkələr Filippin (7 saat 36 dəqiqə), Misir (7 saat 30 dəqiqə), Çexiya (7 saat 24 dəqiqə), İsveç (7 saat 6 dəqiqə), Fransa (6 saat 54 dəqiqə) olub, Macarıstan (6 saat 48 dəqiqə) və Səudiyyə Ərəbistanı (6 saat 48 dəqiqə) yer alıb.

Türkiyə həftədə ortalama 5 saat 54 dəqiqə oxuma vaxtı ilə siyahıda 18-ci yerdədir.

Azərbaycan bu reytinqə ümumiyyətlə, yaxın düşə bilmir.

2021-ci ildə Sosial Tədqiqatlar Mərkəzi 5 gün ərzində əhalinin kitab oxumaq və almaq davranışları ilə bağlı 1067 respondentlə telefon sorğusu keçirib. Sorğu bütün iqtisadi rayonları əhatə edib. Sorğuda əminlik intervalı 95.0%, statistik xəta əmsalı 3.0% təşkil edib. Sorğuda iştirak edənlərin yarısı (49.8%) adətən kitab oxuduğunu bildirib. Təxminən oxşar sayda respondentin (44%) ailəsində özündən başqa kitab oxuyan ailə üzvü yaşayır. Hər 4 respondentdən birinin son bir ildə oxuyub-bitirdiyi kitab sayı 1-3 kitab aralığındadır. Respondentlərin 6.4%-i isə 10 kitabı tam oxuyub bitirib.

Demoqrafik qruplar üzrə baxsaq, evlilərin 45.6%-i və subayların isə 72.9%-i adətən kitab oxuyur. İşləməyib, ancaq iş axtarışında olanların 61.6%-i, işləyənlərin isə 55%-i adətən kitab oxuduğunu bildirib. Yaş, təhsil və aylıq gəlir səviyyəsi artdıqca müntəzəm kitab mütaliə edənlərin sayı azalır. Məsələn, 18-25 və 26-35 yaş qruplarında müntəzəm kitab oxuyanların çəkisi müvafiq olaraq 76.5% və 52.3% təşkil edibsə, 36-65 yaş arasında olanların isə yarıdan az hissəsi kitab oxuyur. Sorğudan da göründüyü kimi, ölkəmiz kitab oxumaqda çox geridə qalır. Ayrı-ayrı yaş qruplarına gəlincə isə göstəricilər ürəksıxıcıdır. Çünki bu göstəricilərin hər biri ayrı-ayrılıqda digər problemlərdən də qaynaqlanır. Lakin təəssüf ki, kitabdan uzaqlaşmağımızın səbəbi etiraf etsək də, etməsək də, əsasən onu sosial şəbəkələrlə əvəzləməyimizdən irəli gəlir.

### Kitab oxumaq həm istirahət, həm də öyrənməkdir

Kitab oxumaq hər zaman mənalı istirahəti təşkil edib. Həm də kitab həmişə əla müəllim olub. Bu gün kompüter, smartfonlar qarşısında gözləri kor olan gənclərin əvvəlki nümayəndələri bu təhlükədən uzaqda kitab oxumaqla gözəl istirahət edir, həm də dünyanın hər yerindən məlumat alırdılar. Bütün bunları söyləməkdə məqsəd sosial şəbəkələri gözdən salmaq deyil. Bu şəbəkələr əslində çox faydalıdır, lakin faydalı şəkildə istifadə olunarsa. Lakin biz onlardan faydalı şəkildə istifadə edirikmi? Əsla. Biz demək olar ki, bütün günümüzü tamamilə sosial şəbəkələrə həsr edirik. Günboyu bir gənc saatlarla bir sosial şəbəkədə olursa, onun həm fiziki, həm də mənəvi sağlamlığı təhlükə qarşısındadır.

Elə bu səbəbdən də yuxarıda qeyd olunan sorğuda belə bir məlumatın da yer alması maraq doğurur: texnologiyanın inkişafına baxmayaraq, mütləq əksəriyyət (81.3%) kitabları əsasən hələ də çap formasında oxuyur. 18-25 və 26-35 yaş qruplarında kitabları əsasən elektron formada oxuyanlar 21%-dən yuxarı olduğu halda, bu göstərici orta yaş qruplarında 5-10% aşağı, 65 yaşdan yuxarı isə 0% təşkil edib.

Sorğuda iştirak edən oxucuların yarısından çoxu (54.3%) kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuduğunu deyib. Yaş cəhətdən bu cavabı seçən qruplar arasında gənc və orta yaşlılarla yuxarı yaşlılar arasında ciddi fərq müşahidə edilib. Belə ki, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların 26%-i 18-25, 25%-i 26-35 və 23%-i 36-45 yaş aralıqlarındadır ki, bu da digər yaş qruplarından 2-3 dəfə daha yüksəkdir. Oxucuların təxminən üçdə biri kitablara şəxsi inkişaf üçün müraciət edir. Maraqlıdır ki, hər 4 nəfərdən biri (27%) üçün kitab oxumaq istirahət sayılır.

### Vaxt yoxdur, kitab bahadır

Bəli, bu gün istənilən sorğu zamanı kitab oxumamaq üçün gətirilən bəhanələr sırasında ”vaxt yoxdur, kitab bahadır” ifadələri ilə daha çox qarşılaşmaq olur. Lakin gəlin görək vaxt nə üçün yoxdur? Təbii ki, ona görə yoxdur ki, Tiktok, İnstagram, Fecebook kimi sosial şəbəkələr insanları saatlarla özünə bağlayır. Xüsusən gənclər sosial şəbəkələrə elə aludə olublar ki, təbii ki, onların kitab oxumağa vaxtları qalmayacaq.

Digər məsələ, kitab bahadır, deyirik. Bəli, bu gün ölkəmizdəki kitab satışı mağazalarında kitabların qiyməti heç də hər kəsin büdcəsinə uyğun deyil. Ötən ay kitab mağazalarından birindən ”Əli və Nino” kitabını aldım. Qiyməti 7 manat 50 qəpik idi. Mağazada bu kitabın üç ayrı nüsxəsi vardı. Onların qiyməti mən aldığımdan baha olduğu üçün ən ucuz olanını seçdim. Düşünəndə ki, ay ərzində 10 kitab alaraq 60-70 manat xərcləməli olacaqsan, bəli, gəlirlərimizə görə bu, kimi üçün bahalı, kimi üçünsə heç də bahalı deyil. Və ölkəmizdə bu gün 32 milyon kitabxana fondu olan 2922 kütləvi kitabxana fəaliyyət göstərir ki, satışda olan kitabların əksəriyyətini oradan alıb oxuyub qaytara bilərik. Elə bu səbəbdən də kitabların bahalı olması ilə bağlı bəhanə heç də tutarlı deyil.

Lakin kitabxanalarda tapa bilmədiyimiz kitablar da var ki, onları satış mağazalarından ala bilirik. Bu səbəbdən də kitabların qiymətinin nəzarətdə saxlanması vacibdir. Hazırda tələbə-gənclər əsasən yeni tərcümə edilmiş kitabları satın alırlar ki, bu da onların büdcəsinə müvafiq deyil. Bu barədə söhbətləşdiyimiz tələbələr- Nərmin Hüseynli, Aysel Məmmədli, Yağmur Musayeva, Orxan Əlizadə, Mətin Məmmədov və Röya Həsənova kitabların baha qiymətə olmasından gileyləndilər. Yuxarıda adıçəkilən sorğuda qeyd olunduğu kimi, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların demək olar ki, yarısının aylıq gəlir səviyyəsi 500 manatdan yüksək, 55%-i ali təhsilli və 54%-i hazırda işləyənlərdir.

Kitab oxumayan 536 respondentin xüsusiyyətlərinə nəzər yetirsək, yaş cəhətdən onların arasında 26-45 yaşda olanlar (49%) üstünlük təşkil edir. Kitab oxumayanlar arasında aylıq gəlir səviyyəsi 0-250 manat olanlar təxminən 50%, orta təhsillilər isə 64% çəkiyə malikdir.

Son bir ildə kitab almağa sərf edilən vəsaitə gəlincə isə nisbətən daha çox respondent (13.3%) 21-50 manat aralığında vəsait sərf edib. 18-25 yaş qrupunda bu miqdarda vəsait sərf edənlər daha çoxdur. 51-100 manat aralığında vəsait sərf edənlərin çəkisi isə cəmi 2% azdır. Bu mənada yaş qrupu cəhətdən 36-45 yaşdakı respondentlər üstünlük təşkil edir. Aylıq gəlir səviyyəsi 500 manatdan yüksək olanlar bütün xərc qruplarında üstünlük təşkil edirlər - yəni kitaba daha çox pul xərcləyirlər. Oxşar hal təhsil səviyyəsi üçün də keçərlidir - ali təhsillilər kitaba daha çox vəsait sərf edirlər.

Kitab oxumayan 536 respondentin gətirdiyi başlıca iki səbəb kimi vaxtının (63.6%) və marağının olmaması (29.6%) qarşıya çıxır. Maraqlıdır ki, olduqca az sayda respondent (5.8%) maddi imkanının kitab almasına mane olduğunu bildirib. Vaxtının olmadığını bildirənlərin 60%-i 26-45 yaş aralığındadır. Mədəni status cəhətdən bu variant daha çox evli olanlar tərəfindən seçilib (66.4%). Tamamladığı ən yüksək təhsil səviyyəsi üzrə ali təhsili olanların 77.1%-i vaxtının olmamasını kitab oxumamağın əsas səbəblərindən biri kimi göstərib. Sosial şəbəkədən hər gün istifadə edənlərin 85.5%-i vaxtının olmamasını deyib.

### Peşəkar jurnalist Güngör Uras haqlıdır

”Milliyət”dəki köşə yazısında peşəkar jurnalist Güngör Uras Türkiyədə kitab oxunması ilə bağlı haqlı gileylərini bildirib. Həmkarımız yazır: kitab oxumaq türklərin ehtiyacları siyahısında 235-ci yerdədir. Oxumaq uşaqların hava, su, yemək kimi gündəlik həyatının bir hissəsi olmalıdır ki, onlar mədəni inkişafını başa çatdırsınlar və informasiya əsrinə yetişsinlər.

Türk uşaqları kitab oxumaqda Afrika ölkələrindən geri qalır. Türkiyədə hər 100 nəfərdən yalnız 4-ü kitab oxuyur. Dünyada adambaşına kitab xərcləri 1,3 dollar olduğu halda, Türkiyədə dörddə bir dollardır. Türkiyə uşaqlara kitab hədiyyə etmək reytinqində 180 ölkə arasında 140-cı yerdədir.

Adambaşına düşən kitabların sayı 60 ildə artmayıb, əhəmiyyətli dərəcədə azalıb. Tənqid və ünsiyyət imkanlarının misilsiz genişliyinə, ali təhsil səviyyəsinə, təhsilli əhalinin on dəfə çox olmasına, xarici aləmlə qarşılıqlı əlaqənin və universitetlərin sayının artmasına baxmayaraq, savadlılıq səviyyəsi iki dəfə aşağı düşüb.

Nə olub? Türklər oxumaq vərdişini qazanıb, sonra itiriblər? İlk ağıla gələn televiziyadır... Televiziya əslində savadlı olmayan, amma özünü var kimi göstərənlər üçün bir bəhanədir. Digər tərəfdən, televiziyanın oxuyan və informasiyanın əldə edilməsində və ötürülməsində fəallıq göstərən, aktivliyini və mütaliəsini artıran insanlara təsiri var.

Bəli, həmkarımız dediklərində haqlıdır. Qonşu Türkiyədə də kitab oxumanın Azərbaycandan heç də fərqli olmayan səviyyəsi ürəkağrıdandır. Bəs nəticə necə olacaq? Bunu söyləməyin özü o qədər dəhşətlidir ki, adam qorxudan ağzına almaq istəmir. Belə isə nə edək ki, kitab oxuyaq? Bu sualı hər birimiz özümüzə verməklə, bir də dərindən düşünməklə qarşıdakı o dəhşətdən yaxa qurtarmış ola bilərik.

**Mətanət Məmmədova**

# Əli Kərimli üçün yığılan pullar "qara kassa"larda fırlanır

## AXCP-nin Gəncə şəhər təşkilatının sədri Bəxtiyar Yusubov ilə partiyanın funksioneri Ramiz Abdullayev əlbəyaxa dava ediblər





Müxtəlif vaxtlarda dağıdıcı müxalif liderlər arasında istər təmsil olunduqları bloklar daxilində, istərsə də rəhbərlik etdikləri partiyalarda pərdəarxası söz atışmaları əlbəyaxa davalara çevrilib. Blokların dağılması, partiyaların parçalanması, kütləvi istefaların baş verməsi əksər hallarda ağır, gərgin qarşıdurmalardan, əlbəyaxa davalardan qaynaqlanır. Hansısa məsələ ətrafında birgə çıxış edirlərsə, deməli, burada anti-Azərbaycan dairələrin tapşırıq və göstərişləri var. Əslində isə, öz aralarında korporativ mənafe savaşı aparırlar. Bu gün müxalif düşərgə və siyasi partiyalar ənənəvi acı taleyini yaşayır. Yəni partiyalararası və təşkilatlardaxili qarşıdurmalar acınacaqlı xarakter daşıyır. Məhz bu amili əsas gətirən ekspertlər müxalifət düşərgəsindəki çəkişmələri qladiatorlar arasındakı qanlı savaşa bənzədirlər. Ən ağır vəziyyətin AXCP daxilində hökm sürdüyü müşahidə edilir. Çünki Ə.Kərimlinin yanlış və səhv siyasəti AXCP daxilində ciddi konfliktlərin yaranmasına gətirib çıxarıb. Əksər qarşıdurmalar maliyyə bölgüsü üstündə yaranır. Ə.Kərimli müxtəlif vasitələrlə xarici fondlardan, ayrı-ayrı şəxslərdən aldığı maliyyə vəsaitlərini özü təkbaşına mənimsəməyə çalışıb. Bu da nəticə etibarı ilə söz-söhbətlərə, ciddi qarşıdurmalara gətirib çıxarıb.

### AXCP qızğın alverin aparıldığı "siyasi bazarı" xatırladır

ANALİZ

Demək olar ki, Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP qızğın alverin aparıldığı "siyasi bazarı" xatırladır. Bazarda maliyyə fırıldaqlarının üstünün aşkarlanması səbəbindən dava-dalaş ağır fəsadların yaranmasına gətirib çıxarır. Bir neçə gün öncə daha bir maliyyə fırıldağının üstünün açılması ilə yaranan dava AXCP-nin Gəncə şəhər təşkilatında baş verib. Dərhal da hadisə sosial şəbəkələrə çıxarılıb və qızğın müzakirələrə səbəb olub. Yayılan məlumata görə, AXCP Gəncə şəhər təşkilatının sədri Bəxtiyar Yusubov ilə partiyanın funksionerlərindən Ramiz Abdullayev əlbəyaxa dava ediblər. Səbəb Bəxtiyar Yusubovun AXCP, daha doğrusu, Əli Kərimli üçün toplanan 2000 manatı Ramiz Abdullayevə faizlə borc verməsi olub. Lakin bir müddət keçib və Ramiz Abdullayevə ona partiya üçün toplanmış puldan borc verildiyini öyrənib və məsələ əlbəyaxa davaya çevrilib. Bu barədə məlumat verən adının çəkilməsini istəməyən mənbənin sözlərinə görə, uzun müddətdir Bəxtiyar Yusubov toplanmış vəsaitləri həm özü mənimsəyir, həm də bir qismini Əli Kərimli ilə bölür. Yəni, AXCP üçün yığılan pullar qeydiyyatdan keçmir, hesaba daxil olmur, yalnız "qara kassa"larda fırlanır. Bəxtiyar Yusubov isə yığılan pullardan özünə düşən payı sələmə verir və içki məclislərinə xərcləyir. Hətta deyilənə görə, Bəxtiyar Yusubovun anası Mehriban Rzayeva da Gəncə şəhərində məşhur sələmçi kimi tanınır. El məsəlidir, "tay axtarıb, tayını tapar". Ə.Kərimlinin əqidə dostları hesab etdiyi ətrafı özü kimi fırıldaqçılardan, dələduz və içki düşkünlərdən ibarətdir. Belələri haqlı olaraq ictimai rəydə qınaq obyekti olur, sosial şəbəkələrdə tənqid və təhqir edilirlər. Nəticə isə yoxdur. Yəni, Ə.Kərimli istefa mədəniyyəti nümayiş etdirərək, sədrlikdən istefa vermir. Çünki o, siyasətə gəlir mənbəyi kimi baxır. Ancaq sağlam cəbhəçilərin də bir səbri var. Həmin cəbhəçilər bir məqamda mövqelərini birləşdirərək, Ə.Kərimlini tarixin arxivinə göndərəcək və bununla da AXCP-dəki söz-söhbətlərə son qoyulacaq.

**İ.ƏLİYEV**

# "Heç kim cəzasız qalmayacaq"

*MÜNASİBƏT*

**"Meşəli canilərindən biri Xaçaturyan Laçın sərhəd keçid məntəqəsində həbs olunmuşdur. Xaçaturyan Meşəlidə dinc insanlara qarşı işlətdiyi cinayətlərinə görə həbs olunmuşdur". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.**





Onun sözlərinə görə, Ermənistanda bu məsələ ilə əlaqədar hay-küy qaldıraraq Xaçaturyanın oğurlandığını deyərək dünyaya ağlaşma qurmağa çalışırlar: "Bu, Ermənistanın cinayətkar mahiyyətindən irəli gəlir. Çünki 90-cı illərdə Xaçaturyan kimi çoxlu erməni cəlladın əlləri azərbaycanlıların qanına batmış, dinc insanlara qarşı ağır işgəncələrin işlətməsi ilə bağlı onlara qarşı cinayət işləri açılmışdır. Ermənistanda qoparılan hay-küy cinayətlərdə əli olan insanların qorxuya düşməsindən irəli gəldiyini hesab edirəm. Bu gün Ermənistanda Koçaryan və Sarkisyanın başçılığı altında azərbaycanlıları amansızcasına qətlə yetirdikərinə görə vaxtilə özlərinə qürur hesab edən yüzlərlə erməni yaşayır. O cümlədən, Qarabağda da belə cinayətkarlar qalmaqdadır. Hesab edirəm ki, törətdikləri cinayətlərinə görə onların hamısının qanun qarşısında cavab verəcəyi günü olacaqdır. Heç kim cəzasız qalmayacaq. Ermənistanda qoparılan hay-küyü isə özlərindən başqa heç kim eşitməyəcək. Çünki hamı bilir ki, cinayətkarların həbs olunması ədalətin təntənəsidir. Bu məsələyə görə dünya ictimaiyyəti Azərbaycanı ancaq nümunə göstərməlidir".

**GÜLYANƏ**

# "Nar" müştəri məmnuniyyəti üzrə göstəricilərini artırmağa davam edir

"Nar" 2023-cü ilin ilk yarısında keçirilən sorğular əsasında göstərdiyi xidmətlərlə bağlı müştəri məmnuniyyəti göstəricilərini açıqlayıb. Günün istənilən saatında xidmətə hazır olan "Nar"ın 777 Çağrı Mərkəzinə son altı ayda 800 000-ə yaxın abunəçi müraciəti daxil olub və orta hesabla onlara 2 dəqiqə ərzində cavab verilib. Ötən illə müqayisədə məmnunluq göstəricisi 2% artaraq 91,4% olub.




"Nar" xidmət mərkəzlərinə cari ilin keçdiyimiz dövründə müxtəlif sorğularla müraciət edən 20 000-dən çox abunəçinin 98%-i mobil operatorun göstərdiyi xidmətlərdən razılıqlarını bildiriblər. Müştərilərin bu xidməti seçməsinin əsas səbəblərindən biri daha rahat xidmət təqdim edən yenilənmiş "Nar" mağazalarının istifadəyə verilməsidir. Bu ilin ilk yarısında yeni standartlara cavab verən 7 "Nar" mağazası təqdim edilib, ilin sonuna qədər isə 12 "Nar" mərkəzi üstün müştəri xidməti üçün hazır vəziyyətə gətiriləcək.

1 milyondan çox abunəçi isə müraciətini "Nar+" tətbiqi vasitəsilə edib. Onların orta hesabla 87,4%-i bu tətbiq üzərindən rahat şəkildə cavab alıblar. Bundan başqa, "Nar"-ın sosial media komandası 40 mindən çox ismarıca operativ reaksiya verib. Müraciətlər daha çox tariflər, internet paketləri və nömrə ilə bağlı əməliyyatlar haqqında olub.

Müştəri təcrübəsinin hər zaman yüksəldilməsinə diqqət yetirən "Nar" davamlı olaraq abunəçilər üçün daha rahat istifadəyə yönəlik təkmilləşdirmələr aparır.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# CityNet Azərbaycanda ilk dəfə 10 Gbit/s internet sürəti təqdim edir

Azərbaycanın qabaqcıl internet provayderi CityNet fərdi və korporativ müştərilərinin internet bağlantısını daha sürətli və keyfiyyətli etdi. Şirkət Azərbaycanda ilk olaraq XGPON texnologiyasını tətbiq etmək üçün lazımi infrastruktur yaradıb. XGPON sayəsində CityNet müştəriləri saniyədə 10 Gbit/s qədər sürətli internetdən faydalanacaqlar. XGPON ilə müştərilər fasiləsiz və keyfiyyətli internet ilə video zənglərdən, onlayn film izləməkdən, oyunlardan və digər imkanlardan zövq ala biləcəklər.




Bu texnologiya səyəsində istifadəçilərə yüksək sürət və etibarlı xidmət təqdim edən CityNet biznesin inkişafına və müştəri təcrübəsinin təkmilləşdirilməsinə öz töhfəsini verməyə davam edəcək. Xatırladaq ki, CityNet provayderi ölkəmizdə ilk dəfə bu texnologiyanı istifadəyə verən şirkətdir.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edərək və ya *1177 ilə əlaqə saxlayaraq əldə etmək mümkündür.

# Milli varlığımız, kimliyimiz - Ana dilimiz!




***"Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir"***

*Ümummilli Lider Heydər Əliyev*

Dilin saflığı, onun qorunması yolunda Azərbaycan xalqı illər uzunu mübarizə və mücadilə aparıb. Azərbaycan dili milli müstəqilliyin, suverenliyin, istiqlalın, Azərbaycan ideologiyasının əsaslarından biri olduğundan, varlığımızı sübut edən bu məfhum müasir günümüzə qədər təkmilləşərək, xalqa təqdim olunub. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərabycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik”.




Dil xalqın tarixi, mədəniyyəti, bu günü və gələcəyidir. Dil mədəniyyətdir, dil ünsiyyətdir. Dil xalqın varlığıdır. Dil xalqın tarixi, mədəniyyəti, bu günü və gələcəyidir. Dilin saflığı, onun qorunması yolunda illər uzunu mübarizə və mücadilə aparılıb. Dünyada ən gözəl, ən məlahətli, ən şirin nemət dildir. Ən çətin zamanlarda belə dil qorunub. Gözəl bir ifadə var: nə qədər ki, əsarət altına alınmış xalq öz dilini dərindən bilir, o sanki öz zindanının açarını əlində saxlayır... Deməli, dili bilmək, onun saflığını qorumaq xalqın varlığını yaşatmaqdır. Dünya təcrübəsi göstərir ki, bir xalqın xalq olması üçün dilinin varlığı mütləqdir. Bəli, Azərbaycan xalqı xoşbəxt bir xalqdır ki, əsrlərə söykənən dilini qoruyub saxlaya bilmişdir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış, bu günümüzə qədər gəlib çatmışdır. Bildiyimiz kimi, bizim ana dilimiz bu günə kimi, çox ziddiyyətli yollar keçsə də, öz zənginliyini və saflığını qoruyub-saxlamışdır. Tarixin dönəminə nəzər salsaq görərik ki, Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses oldu. Bildiyimiz kimi, 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu Komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırığı verildi. Bu yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən, latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyəsinə əsasən, 1929-cu il yanvarın 1-dən etibarən, Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi.




### ”HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI, HƏR BİR AZƏRBAYCANLI ÖZ ANA DİLİNİ, AZƏRBAYCAN DİLİNİ VƏ DÖVLƏT DİLİNİ MÜKƏMMƏL BİLMƏLİDİR”

Xüsusi olaraq vurğulayaq ki, 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Belə ki, Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. ”Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir”, - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. 1978-ci ilin IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndərin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: ”Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.”Sovet imperiyasının buxovlarından xilas olan Azərbaycanda 1990-cı ildən yenidən latın qrafikalı əlifbaya keçidlə bağlı təşəbbüslər irəli sürülməyə başlanılmışdır. Azərbaycan Əlifba Komissiyasının tərtib etdiyi yeni əlifba 1992-ci ildə təsdiq edilmiş və tətbiq edilməyə başlanılmışdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açdı. Daha sonra Ulu Öndər Heydər Əliyevin ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

### ANA LAYLAMIZIN DİLİ

Ulu Öndərin böyük önəm verdiyi dil siyasəti onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2004-cü il 27 dekabr tarixli Sərəncamına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkədəki bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Qeyd edək ki, dövlət başçısının 24 avqust 2007-ci il tarixli digər bir Sərəncamı ilə dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində kütləvi şəkildə nəşri də həyata keçirilmişdir. Prezident İlham Əliyev tərəfindən bir-birinin ardınca imzalanan ”Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında”, eləcə də, ”Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” sərəncamları Azərbaycan dilinin inkişafı istiqamətində növbəti addımlar oldu. ”Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli fərmanı xalqımızın ana dilinin ədəbi dil səviyyəsində qorunmasına və zənginləşdirilməsinə yönəlik dövlət siyasətinin davamlılığının və mükəmməlliyinin daha bir təzahürüdür.

Bu gün müstəqil bir ölkənin vətəndaşı olaraq, Ana dilimizi qorumaq borcumuzdur. Bu dil bizim ana laylamızın dilidir. Azərbaycanın dilidir. Milyonlarla insanımızın danışdığı dildir. Sevgimizin dilidir ki, dilimizdən, qəlbimizdən axıb gələn müqəddəs kəlamları - Azərbaycan, Vətən, Torpaq sözlərini bu dillə ifadə edirik. Hər bir Azərbaycan vətəndaşının borcudur ki, bu dili sevsin. Azərbaycan dili bu gün planetimizin 70-dək ölkəsində yaşayıb-yaradan 50 milyondan artıq bir xalqın dili kimi formalaşıb. Azərbaycan dili milli müstəqilliyin, suverenliyin, istiqlalın, Azərbaycan ideologiyasının əsaslarından biri olduğundan, varlığımızı sübut edən bu məfhum müasir günümüzə qədər təkmilləşərək, xalqa təqdim olunub. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub-möhkəmləndirmişdir. Ona görə də, xalqımıza ulu babalardan miras qalan bu, ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı və daim qayğı ilə əhatə etməlidir.

Hər bir sahədə çalışan insan dilin qayda-qanunlarına əməl etməyə vətəndaş olaraq borcludur. Dilin qorunması, işlənməsi, yad ünsürlərdən mühafizəsi, danışıq dilində sözlərin tələffüzü və digər məsələlər vacib hesab olunur.

Dilin təmizliyi uğrunda mübarizə aparan və milli dilin inkişafına ömürlərini həsr edən simaların və şəxsiyyətlərin qarşısında məsuliyyətliyik. Bu gün çox təəssüf hissi ilə qeyd etməliyik ki, dilimizə yad olan sözlərlə tez-tez rastlaşırıq. Milli mətbuatımızda da belədir. Jurnalistin əsas materialı sözdür. Söz fikrin gerçəkliyinin ifadəçisidir. Mətbuatda informasiya dil və söz vasitəsilə çatdırılır. Əlbəttə ki, jurnalist peşəkarlığının əsas elementlərindən biri dildən istifadə ilə bağlıdır. Danışıq dilində, informasiyanın çatdırılmasında fikrin aydın və lakonik şəkildə çatdırılması, yeri gələndə, nitqdə hisshəyəcan və emosiyanın duyulması, bəzən kəskinliyin, sərtliyin görünməsi - bütün bunlar jurnalist üçün vacib hesab edilən amillərdir. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günüdür. Hər kəs Azərbaycan dilini qorumalı və onun müqəddəsliyini dərk edərək varlığı qədər sevməlidir və buna borcludur.

***Zümrüd BAYRAMOVA***

# Xaçaturyanın həbsindən "Milli Şura" niyə narahatdır?



44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın düşmən əsarətindən azad edilməsi bəzi xarici güclərin, eləcə də sapı özümüzdən olan baltaların ciddi narahatlığına səbəb oldu. Bu baxımdan, hər vəchlə parlaq qələbəyə kölgə salmaq, müəyyən hallarda zərər vurmaq üçün müxtəlif təxribatçı addımlar atır, açıqlamalar verib bəyanatlar səsləndirirlər. Lakin bu kimi təxribatçı əməllərə, separatçı hərəkətlərə baxmayaraq Azərbaycan xalqı qələbə yolunu davam etdirir. İşğaldan azad edilmiş ərazilərdə geniş quruculuq, bərpa və tikinti işləri həyata keçirib, insanların öz tarixi yurd-yuvalarını qayıdışını təmin etməklə yanaşı, dövlətimiz rus sülhməramlılarının müvəqqəti məsuliyyət zonasındakı ərazilərdə suverenliyin bərpası üçün sərt və qətiyyətli addımlarını atmaqdadır. 2023-cü ilin aprelin 23-də Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd-keçid məntəqəsinin qurulması suverenliyimizin təmin olunması istiqamətində atılan ən mühüm addımlardandır. Artıq separtçıların və onların xaricdəki himayədarlarının rus sülhməramlılarının müvəqqəti məsuliyyət zonasındakı ərazilərə silah-sursatın və digər qeyri-qanuni avadanlıqların daşınmasının qarşısı alınıb. Bununla yanaşı, xarici ölkə vətəndaşlarının Azərbaycanın icazəsi və razılığı olmadan Xankəndinə daxil olmaları mümkün deyil. Haqlarında Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarış verilmiş şəxslərin məsuliyyətə cəlb olunmaları istiqamətində təxirəsalınmaz tədbirlər görülür.



### Cəllad cəzadan qaça bilmədi

Meşəli soyqırımı hadisələri ilə bağlı beynəlxalq axtarışda olan Xaçaturyan Vaqif Çerkezoviçin Laçın sərhəd-keçid məntəqəsində saxlanılması cinayətkarın cəzasız qalmasının qeyri-mümkün olduğu bir daha nümayiş etdirildi. Bu, o canidir ki, bir qrup erməni hərbi birləşmələrinin tərkibində 1991-ci ilin 22 dekabr tarixində Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törədib. Qırğın zamanı, 25 nəfər azərbaycanlı öldürülüb, 14 nəfər yaralanıb, 358 nəfər azərbaycanlı isə didərgin salınıb. Qeyd edilən kütləvi qırğın ilə əlaqədar aparılan cinayət işi üzrə Xaçaturyan Vaqif Çerkezoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiyaetmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə qərar qəbul edilib ona məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və o, məhz bu cinayət işi çərçivəsində Xaçaturyan Vaqif Çerkezoviç iyulun 29-da Ermənistana gedərkən sərhəd-buraxılış məntəqəsində həbs edilib. O məhkəmə qarşısına çıxarılaraq layiq olduğu cəzanı alacaq, bu, şübhəsizdir. Lakin erməni cinayətkarının həbsindən Paşinyan və onun hərbi xuntası qədər Azərbaycanın dağıdıcı müxalifətinin narahatlıq keçirməsi başa düşülən deyil. Haradasa ermənilərin hay-küyləri anlaşılandır. Yəni, ermənidən fərqli mövqe gözləmək mümkün deyil.

### Cəmil Həsənli Xaçaturyanı niyə müdafiə edir?

"Milli Şira" və AXCP funksionerlərinin Xaçaturyanın həbs edilməsindən sonra sosial şəbəkələrdə ermənilər kimi ağlaşma qurmaları bir sıra suallar yaradır. Birincisi, Cəmil Həsənli, Əli Kərimli, Tofiq Yaqubu və digərləri ermənidirlər, yoxsa azərbaycanlı? İkincisi, Meşəli soyqırımında insanları vəhşicəsinə qətlə yetirmiş Xaçaturyanın həbsinə görə dövlətimizə qarşı ittihamlar səsləndirib, "86.6 min km? ərazini həbsxanaya çeviriblər", "Əvvəlcə özünüzü düzəldin, ermənilər qaça-qaça reinteqrasiya edəcəklər. Ölkəni qapalı həbsxanaya çevirmisiniz " kimi sosial şəbəkələrdə statuslar paylaşmaq Azərbaycan xalqının heysiyyatına toxunmaq deyilmi? Necə ola bilər ki, insanları qətlə yetirmiş, evəşiyini dağıtmış Xaçaturyanın şəklini paylaşıb onu müdafiə edəsən, ona etdiyi vəhşiliklərə görə haqq qazandırasan. Tam əminliklə demək olar ki, dağıdıcı müxalifət ya Ermənistanın xüsusi xidmət orqanları ilə iş birliyindədirlər, ya da erməni lobbisindən tapşırıq alıblar. Düzdür, bundan əvvəl də dağıdıcı müxalif ünsürlər ermənilərə xoş gəlmək, onların arasında ruh yüksəkliyi yaratmaq üçün milli varlığımızı təhdid və təhqir edən açıqlamalar verib, statuslar paylaşmışlar. Misal üçün, 44 günlük Vətən müharibəsi vaxtı bütün siyasi partiyalar birləşərək beynəlxalq təşkilatlara ermənilərin vandal əməlləri ilə bəyanatlar, müraciətlər ünvanladıqları zaman AXCP, Müsavat və "Milli Şura" müraciətlərə qoşulmaqdan imtina etmişdilər.

2020-ci il sentyabrın 12-14-də Azərbaycan ordusu Qaragöl istiqamətində mövqelərini bir qədər irəli çəkib, möhkəmləndirmə işləri apararkən, AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, "Milli Şura"nın üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri ABŞ-ın qaranlıq dairələrinin layihəsi olan Sevinc Osmanqızının və Qənimət Zahidin "Azərbaycan saatı" TV-lərinə çıxıb, Azərbaycana qarşı erməni maraqlarına xidmət edən açıqlamalarla çıxış etmişdilər.

### Hər bir cinayətkarın aqibəti Vaqif Xaçaturyan kimi olacaq

Bütün cəmiyyət Zəngəzur dəhlizinin açılmasına çalışdıqları bir məqamda T.Yaqublu "Zəngəzur dəhlizi Azərbaycan dövlətinin avantürasıdır", - deyə Arayik, Koçaryan, Sarkisyansayağı fikirlər bildirmişdir. C.Həsənli "Sülhə nail olmaq üçün Qarabağdakı ermənilərə ən yüksək status verilməlidir", - deyə cəfəng fikir söyləmişdir. Məlum olduğu kimi, hazırda ermənilər Laçın sərhəd-keçid məntəqəsi önündə Xankəndidəki ermənilərə "humanitar yardım" aparmaq adı ilə təxribat həyata keçirməyə çalışırlar. Lakin Azərbaycan sərhədçilərinin qorxusundan təxribatı açıq şəkildə göstərə bilmirlər. Sadəcə, sərhəd yaxınlığında bəzi qərəzli ölkələrin və fars molla rejiminin səfirlərinin iştirakı ilə şou göstərirlər. Yəni, dünyanın diqqətini özlərinə cəlb etməyə çalışırlar. Dünya birliyi isə Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ermənilərin şou xarakterli hərəkətlərini ironiya ilə qarşılayırlar. Azərbaycanın dağıdıcı müxalifəti bir dəfə də olsun Laçın sərhəd-keçid məntəqəsi yaxınlığında ermənilərin qurduqları şounu tənqid edən, ən azı irad bildirən mövqe ifadə etməyiblər.

Əksinə, Ə.Kərimli "ermənilərin humanitar yardım almağa haqları olduğunu" bildirib. Bununla onun təfəkkürünün Şərqi Zəngəzurda dayanıb tülkü kimi Azərbaycan sərhədlərinə boylanan fars-molla rejiminin Ermənistandakı səfirindən fərqli düşüncəyə və təfəkkürə malik olmadığını göstərir. Bir sözlə, AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın sədri Cəmil Həsənlinin, "Milli Şura"nın üzvləri Tofiq Yaqublunun, Gültəkin Hacıbəylinin və digərlərinin Azərbaycana münasibətdə maraqları fars mollalarının və erməni vəhşi toplumun maraqları ilə üst-üstə düşür. Lakin erməni vəhşi toplumu, fars mollaları, fransız təxribatçıları və Azərbaycanın dağıdıcı müxalifəti nə düşünmələrindən və hansısa təxribatlar planlaşdırmalarından asılı olmayaraq Azərbaycan dövlətinin hüquq-mühafizə orqanları onları çətinlik çəkmədən zərərsizləşdirəcək. Necə ki, Müzəffər Ordumuz Vətən Müharibəsində erməni terrorçularını və onlara hərbi, siyasi dəstək göstərənləri 44 gün ərzində məhv edib, təslimçilik aktını imzalamağa məcbur etdi. Cinayət törədib küncdə-bucaqda gizlənənlər gec-tez üzə çıxacaqlar və bu zaman onların da aqibəti Vaqif Xaçaturyan kimi olacaq.

**İ.ƏLİYEV**

---



MƏTANƏT

# Ana dilim-doğma dilim, şirin dilim...

**Göz açıram dünyaya mən: bura hara? Azərbaycan. Layla çalır başım üstə müqəddəs bir varlıq olan anam mənim, layla çalır ana dilim. Yuxularım yoğrulur bu şirin dildən. Bədənimə dolur bənzərsiz bir sevgi, istək ana dildə: " Laylay dedim yatasan sən, şirin yuxu tapasan sən "**

Günlər keçir Ana dilim hopmuş sözlər mənə duyğu, qanad verir. Böyüyürəm, ana dilim yavaş-yavaş öz dilimdə səslənir, bax: "A" deyirəm, sonra da ki, "N" deyirəm. Anam bir gün sevincindən şaşıb qalır: balam "ana" söyləyir ki! Sonra isə yavaş-yavaş danışıram, Azərbaycan deyirəm, ana dilim Azərbaycan dilində.

Aylar keçir Ana dildən ilham alıb, qol-qanad açıram mən, böyüyürəm, oynayıram, uşaqları çağırıram ana dildə. Söhbətləşib, gəzişirik şirin dildə. Bir-birimizi başa düşür, hiss edirik ana dildə.

İllər keçir Boya-başa çatmışam mən. Altı yaşlı bir fidana varmışam mən. Budur, bu gün bir Azərbaycan məktəblisi olmuşam mən. Yollanıram sevinclə mən, tələsə mən, ana dildə daha nələr öyrənməyə Günlər keçir Evdə anam, məktəbdə müəllim əllərimdən tutur mənim. Bax, bu nədir, bu gün mənə verdi müəllim? "Əlifba"dır. İlk hərfi öyrənirik. O, "A"-dır, ana dilim Azərbaycan, doğma Vətən Azərbaycan bu hərflə başlayır ki! Günlər keçir, aylar ötür Ana dildə "A"-dan "Z"-yə "Əlifba"nın hərflərin öyrənirəm. Ana dildə nağıllar, hekayələr, rəvayətlər oxuyuram. Çoxlu şeir, nəğmələr də öyrənirəm. Azərbaycan-odlar yurdum, göz bəbəyim, ürək param söyləyirəm. Ana dildə "Əlifba"dan gör bir nələr öyrənirəm?

İllər ötür, ana dilim-doğma dilim, şirin dilim, bağlanıram bir qırılmaz tel ilə mən, sənə dilim. Çünki hər kəslə bu dildə dil tapıram. Ana, ata məhəbbətin mən bu dillə qazanıram. Dost tapıram ana dildə, ürək açıb, sirr verirəm ana dildə. Oxuyuram, sual verib, cavab alıb, elmləri əxz edirəm ana dildə, böyüyürəm şirin dildə.

Azərbaycan- ana dilim, indi varlığıma hakimsən. Sənlə yoğrulan bədənin sənlə ötən illərisən. Bu illərdə ana dilim-şirin dilim, gör, mənə nələr öyrətmisən? Dərk edərək həyatı mən yetkinləşdiyim andan səndən qeyri özüm üçün heç bir həmdəm tanımıram. Anam mənim, Azərbaycan, doğma Vətən, Azərbaycan, şirin dilim, Azərbaycan. Sənlə qürur duyuram mən. Sənə bağlı olduğumçün səndən ayrı yaşamağı heç bir zaman sanmıram mən. Buna görə ana dilim, doğransam da dilim-dilim, başqa dilə dönən deyil. Şirin laylanla oxşayıb böyütdün axı bizləri sən. Bundan sonra haqqım nədir səndən qeyri bir dilə mən dönüb baxam. Yəni səndən şirin, səndən doğma bir dil varmı bu dünyada?

---

# CityNet 1+1 kampaniyasına start verdi

CityNet müştərilər üçün əlverişli 1+1 kampaniyasına start verdi. Artıq CityNet xidmətlərinə yeni qoşulan və mövcud tariflərdən birini seçən müştərilər birinci ayın abunə haqqını ödəyərək ikinci ay seçilmiş tarifdən pulsuz istifadə edəcəklər. Kampaniyadan www.citynet.az veb saytı vasitəsilə xidmətlərə qoşulmaqla yararlanmaq mümkündür.




Yeni müştərilər şirkətin veb saytında müvafiq məlumatları daxil etməklə üç tarif paketindən birini seçərək qoşulma sorğusu göndərə və kampaniyadan yararlana bilərlər. Birinci tarif paketində 40 mbit/s sürətli internet sadəcə 17.99 AZN-ə təqdim edilir. Həm internet, həm də TV xidmətini əhatə edən ikinci tarif paketində 50 mbit/s sürətli internet və 240 TV kanal birlikdə istifadəçilərə sadəcə 27.99 AZN-ə təqdim olunur. Vahid paketdə olan üç xidmət - 100 mbit/s internet, 240 TV kanal və ev telefonu xətti xidməti isə CityNet tərəfindən abunəçilərə sadəcə 37.99 AZN-ə təqdim olunur.

CityNet-dən 1+1 kampaniyası məhdud müddətdə qüvvədə olmaqla yeni qoşulan abunəçilərə şamil olunacaqdır. Bu səbəbdən internet provayder müştərilərini bu əlverişli kampaniyadan yararlanmağa çağırır.

Kampaniya CityNet xidmətlərinin aktiv olduğu bütün ərazilərə və həm FTTB, həm də GPON texnologiyası ilə xidmətlərə qoşulan abunəçilərə şamil edilir.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir.

CityNet-ə yeni qoşulan abunəçilərə istifadə müddətində yeni nəsil TV Box və WiFi ruter cihazı da pulsuz verilir. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, texniki dəstək, xidmətin hər hansı ünvanda mövcudluğu ilə bağlı şirkətin www.citynet.az veb saytında ətraflı məlumat əldə etmək mümkündür.

# Qərənfildən Xarıbülbülə gedən yolun Sarvanı...

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar olmuşdur-həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı öz arxasınca aparmış, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli liderin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Ulu öndərin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir-onun keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyət olan Ulu öndər haqqında dünyanın məşhur simalarının necə heyranlıqla, ehtiramla danışdıqlarının dəfələrlə şahidi olmuşuq. Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimləri tərəfindən dünya miqyasında böyüklüyü etiraf edilən, o cümlədən ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi hər kəsdə qürur və iftixar hissləri yaradır.

XX əsrin 80-ci illəri SSRİ üçün həm iqtisadi, həm də siyasi cəhətdən çətinliklərlə dolu olmuşdur-Qorbaçovun bir sıra üzdəniraq islahat tədbirləri bu çətinliklərə çarə olmamış, yarımçıq qalmış, nəhəng bir dövləti uçuruma sürükləmişdir. Yaranan şərait zəngin təbii sərvətləri olan Azərbaycanın talan edilməsinə yol açmışdır - Azərbaycan xalqına ermənilər tərəfindən edilən haqsızlıqlara həm ümumittifaq, həm də respublika Kommunist Partiyasının səssiz qalması azərbaycanlıları hərəkətə gətirmişdir. Xalq uzun müddətdir davam edən təzyiqdən yorulmuş, meydanlarda "Azadlıq!" şüarlarını səsləndirməyə başlamışdır. Ermənilərin tarixi Azərbaycan torpaqlarında, Qarabağda və sərhəd bölgələrində Azərbaycan xalqına qarşı tətbiq etdiyi qəddarlıqlar nəticəsində məcburi köçkünlər ordusu yaranmışdır-belə bir şəraitdə Moskvanın da ermənilər lehinə mövqeyi onsuz da gərgin olan vəziyyəti daha da kritik həddə çatdırmışdır. Qanlı yanvar hadisəsi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur-ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirmişdir-bu qırğın nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, onun milli azadlıq uğrunda mübarizə əzmini qıra bilməmişdir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş və dinc əhaliyə divan tutulmuş, nəticədə yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. Mərkəzi hakimiyyət Azərbaycan müstəqillik hərəkatının Sovet Azərbaycanı hökumətini devirmək cəhdlərinin qarşısını almaq üçün hərbi qanunun zəruri olduğunu iddia edirdi. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular artıq 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdırlar-yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda-yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə, Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbçilər tərəfindən 200 ev və mənzilə, 80 avtomaşına, o cümlədən təcili yardım maşınlarına ziyan vurulmuş, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər də olmuşdur. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır-bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır.



**Yaşar Əhmədov**
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Ümummilli lideri Heydər Əliyevin liderlik fəaliyyəti xalqımızın çağdaş tarixinin yarım əsrlik bir dövrünün başlıca istiqamətini və məzmununu təşkil edir-o tarix yaradan bir şəxsiyyət olmaqla yanaşı, həm də tarixi hadisələrə ən doğru-düzgün qiymət verən mütəfəkkir dövlət xadimi, misilsiz bir şəxsiyyətdir. Bu baxımdan dahi siyasətçinin 20 Yanvar hadisələri ilə bağlı siyasi fəaliyyəti və bu faciəyə verdiyi qiymət özü mükəmməl bir tarixi nümunədir. Ümummilli lider bu faciəni Azərbaycana qarşı törədilmiş bəşəri cinayət adlandırmışdır-20 Yanvar xalqımızın həyatında dərin və sonsuz hüzn törətməsinə baxmayaraq, Ulu öndər onu tarixi qəhrəmanlıq nümunəsi kimi dəyərləndirmiş, yeni nəsillər üçün örnək səviyyəsinə yüksəltmişdir. Müstəqilliyimizin banisi faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, faciədən zərər çəkənlərə dövlət qayğısı göstərilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. 20 yanvar hadisəsi ilə bağlı Ulu öndərin mövqeyi, açıqlamaları, atdığı addımlar üç onillik öncə baş vermiş mürəkkəb və qanlı hadisələrin mahiyyətini anlamaqda, onun ibrət dərslərini öyrənməkdə xalqımızın qiymətli mənəvi qaynağıdır.

Sovet rəhbərliyinin ali vəzifə borcuna və adi insanlıq xislətinə zidd olaraq Azərbaycana qarşı irimiqyaslı hücum təşkil etməsi, nəticədə çox sayda dinc insanın qətlə yetirilməsi və yaralanması uşaqdan-böyüyə, qadından-qocaya hamını ayağa qaldırdı, nifrət və qəzəb adlı nəhəng bir tonqalı alovlandırdı. Törədilmiş vəhşiliyin qanlı görüntüləri, xəyanətkar izləri milyonlarla insanı yüksək bir cərəyan kimi silkələyib eyni məcraya yönəltdi. Yumruq halına gəlmiş xalqımız heç bir hərbi gücün ram edə bilməyəcəyi qüdrətli bir sipərə döndü. Şəhərə yeridilmiş zəhmli bir güc-gecə yatmış şəhərin başında fırtına qoparmış müasir hərbi texnikanın və mərkəzi obyektlərə sıx-sıx yerləşdirilmiş qoşun bölüklərinin özü səhərin açılması ilə güclü bir qasırğanın qoynuna düşüb acizləşdi. Mərkəzin qarşılaşdığı bir hadisə-şəhərin Qərənfil gölünə bürünməsi bütün dünyanı heyrətə saldı. Artq hadisənin səhəri günü qırğının törədildiyi yerlərə qərənfillər düzülməyə başladı, bütün bunlar heç bir mərkəzdən idarə olunmadan həyata keçirildi və tezliklə bütün Azərbaycan qərənfilə büründü.

Həmin məqamda Moskvada qəfil baş verən hadisə mərkəzi kəskin diksindirməklə yanaşı, Bakı qırğınının gizlinlərini bütün dünyaya bəyan etdi. Ermənipərəst sovet rəhbərinin Qarabağı asanlıqla ermənilərə hədiyyə etmək üçün SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdırdığı və ciddi nəzarət altında saxladığı dünya şöhrətli siyasət və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyev bütün maneələri aşaraq faciənin səhərisi gün Moskvada bir parça Azərbaycan sayılan resbublikamızın Daimi Nümayəndəliyinə gəldi, dərin hüzn içərisində xalqımıza başsağlığı verdi. Ulu öndər Vətəninin harayına yetişərək beynəlxalq mətbuat konfransı keçirdi, Bakı həqiqətlərini bütün dünyaya yayılması üçün geniş bir qapı açdı. Nümayəndəlikdəki bu çıxış təqaüdə göndərilən, siyasi arenadan uzaqlaşdırılan Ulu öndərin siyasi səhnəyə, fəal siyasi fəaliyyətə yenidən qayıdışı oldu.

Sonralar xatirələrində "20 Yanvar mənə dərs oldu" - deyən Qorbaçov 20 Yanvar qırğınının məsuliyyətini dolayısı yolla olsa da, etiraf etmişdir: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Böyük siyasət və dövlət xadimi Heydər Əliyev az sonra Vətənə dönəndə M.Qorbaçovun 20 Yanvarla bağlı cinayətinə belə qiymət vermişdi: "Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxarılmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın Ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın". 1991-ci il martın 7-də AR Ali Sovetinin nöbəti sessiyasında Ulu öndər 20 yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh etdi: "...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür". Ulu öndər qatillərin aşkarlanması məsələsini yenidən qaldırmış, 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu vurğulamışdır.

Qanlı Yanvar faciəsi ilə bağlı verilən kəskin bəyanatlar artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanması idi-dahi şəxsiyyətin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsidir-o, kommunist partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdir-o bu müraciətdə 20 yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: "Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. IKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyildir".

20 yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməməsi Ulu öndəri çox düşündürən məsələlərdən biri idi. 1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdir. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdir. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdır. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Ulu öndər bu barədə deyirdi: "...Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Yalnız Ümummilli liderin hakimiyyətə qayıdışından sonra Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. AR Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Təəssüf ki, 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Sənəddə Sov.İKP, sovet dövləti və hökumətinin, şəxsən M.Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, yerli hakimiyyətin xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı.

Ümummilli lider şəhidləri və şəhid ailələrini heç vaxt diqqətdən kənarda qoymurdu-20 Yanvar faciəsinin bütün ildönümlərində şəxsən Şəhidlər xiyabanını ziyarət edən Prezident, şəhid ailələrinə müraciətlə bütün Azərbaycan xalqı adından onlara baş sağlığı verir, problemləri ilə yaxından maraqlanırdı. Bu faciəni böyük bir tarixi hadisə kimi qiymətləndirən Prezident qəhrəman övladlarımızın özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdıqlarını ifadə etmişdir. Ulu öndər bu məkanın Azərbaycan xalqı üçün ən müqəddəs yer və ən qiymətli abidə olduğunu bildirmişdir. "...Xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır". Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının bir qrupu ilə 28 mart 1998-ci il tarixli görüşdə də bu dövrün dərin təhlil edilməsinin zərurətini nəzərə çatdırmışdır. Ümummilli lider 20 Yanvar faciəsinin mahiyyət etibarı ilə bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmiş ən qanlı terror aktlarından biri kimi qiymətləndirmişdir.

Xristian Qərb dünyasının diqqətini çəkmək istəməyən Moskva ermənilərə müdaxilə etməmiş, lakin məsələyə ikili standartlardan yanaşaraq, eyni mövqeyi Azərbaycana qarşı göstərməmişdir. Bu qətliamın məqsədinin başlıca olaraq, Azərbaycan milli azadlıq hərəkatına zərbə vurmaq olduğu aşkar görünür. Qarabağ müharibəsi ilə birlikdə yurdlarından köçürülən azərbaycanlıların sovet hakimiyyətinə qarşı narazılığı gündən-günə artmışdır. Eyni zamanda təbii sərvətlər baxımından zəngin olan Azərbaycanın müstəqillik qazanması sovet hökuməti üçün son dərəcə arzuolunmaz bir hadisə idi. Bu səbəbdən sovet rejimi Azərbaycanda yüksələn müstəqillik hərəkatını nə yolla olursa-olsun yatırmaq, sovetlərə bağlı digər respublikaların heç vaxt müstəqillik hərəkatına can atmamaları üçün onlara da bir ibrət dərsi vermək qərarına gəlmişdir. Hadisələrin inkişafı Azərbaycanda xalq hərəkatının daha da genişlənməsini və güclənməsini təmin etdiyi kimi, ölkədə müstəqillik istəyini daha güclü bir şəkildə gündəmə gətirdi. Bu proses Azərbaycanı müstəqilliyə aparacaq olan xalq hərəkatının da təşkilatlanmasını və güclənməsini təmin etdi.

Dağlıq Qarabağ münaqişəsinin başlaması ilə davam edən proseslərdə Ulu öndər SSRİ-nin siyasətini tənqid edən mövqedən çıxış etmişdir. 1991-1993-cü illər arasında Naxçıvan MR Ali Sovetinə sədrlik etmiş, həmçinin 1992-ci ildə Yeni Azərbaycan Partiyasının sədri seçilmiş, 1993-2003-cü illərdə isə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olmuşdur.

16 dekabr 1999-cu il tarixdə 20 Yanvar faciəsinin ildönümü haqqında fərman imzalanmış, bu qətliamın hər il Ümumxalq Hüzn Günü kimi qeyd edilməsi qərara alınmışdır. Ümummilli lider demişdir: "Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda, Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haql olaraq qeyd edir ki, "hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ iki il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi".

Yanvarın 20-nə keçən gecə 131 insan öldürülmüşdür: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4 şəxs itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdir. Sonradan araşdırmalar aparan Moskvadakı "Şit" ("Qalxan") adlı müstəqil hərbi qrup belə bir nəticəyə gəldi ki, Sovet ordusu sovet şəhərinin sakinlərinə qarşı əsl müharibə aparmışdır. Qrup hərbi əməliyyata şəxsən başçılıq etmiş müdafiə naziri Yazova qarşı cinayət işi açmaq tələbi ilə çıxış etdi.

***Ardı Səh. 13***

Əvvəli Səh. 12

1995-ci aprelin 27-də İstanbulda Mixail Qorbaçov Qara Yanvarla bağlı bunu demişdir: "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi".

Müstəqilliyimiz tarixinin iki hadisəsi insanlığa örnək ola biləcək bir nümunə oldu: 1990-cı il yanvar faciəsindən sonra Qərənfil Şəhid gülü statusu aldı və Qəhrəmanlıq simvoluna çevrildi, 2020-ci il Vətən müharibəsində isə Xarıbülbül Milli mənlik gülü statusu aldı və Zəfər simvoluna çevrildi.

Ümummilli lider xalqımıza qarşı törədilən daha bir cinayət haqqında deyirdi: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir"-1992-ci il fevralın 26-da Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir- həmin vaxt hansısa kiçik cinayət hadisəsi deyil, bütöv Azərbaycan xalqına qarşı soyqırımı aktı həyata keçirilmiş, bəşəriyyətin ən böyük faciələrindən biri törədilmişdir. Bu cinayətin səbəbkarı isə Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" qurmaq xülyasına düşmüş, xalqımıza qənim kəsilmiş ermənilərdir. Xocalı faciəsi özünün ağırlığı, dəhşəti ilə ermənilərin törətmiş olduğu digər cinayətlərdən köklü surətdə fərqlənir. Xocalıda 613 nəfər qətlə yetirildi, 1275 nəfər əsir və girov düşdü, 56 nəfər xüsusi qəddarlıqla öldürüldü, şəhərin özü isə talan edildi və dağıdıldı. Ümummilli lider hakimiyyətə gəldikdən sonra Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı aktı kimi təsbit olundu. Ulu öndərin sayəsində Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü.

XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımları xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır. Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. Erməni siyasi lideri Xocalını törətməklə xalqımızı qorxutmaq istədiklərini həyasızcasına bəyan etmişdir-Xocalı qətliamı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli səhifəsidir. Ümummilli lider Xocalı soyqırımının tanınmasının əsas səbəbkarı, təşəbbüskarı olmuşdur-o erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişilə Təhlükəsizlik Şurasının sədrinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdir.1994-cü il 24 fevralda Milli Məclisin qərarı ilə hər il fevralın 26-sı "Xocalı soyqırımı günü" kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ümummilli liderin təşəbbüsü ilə əsrin bu böyük faciəsi dövlət tərəfindən öz qiymətini aldı. 1995-ci il 24 fevralda Milli Məclisin dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciəti oldu. Xocalı soyqırımına siyasi qiymətin verilməsi məhz Ulu öndərin adı ilə bağlıdır: " ...1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik....". Soyqırımı qurbanlarını daim yad edən, şəhidlərin xatirəsini əziz tutan Ümummilli lider 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" fərman imzaladı.

Ulu öndər xalqa 2002-ci il 25 fevral tarixli müraciətində qeyd edirdi ki: "Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir". 2003-cü il 15 fevralda Xocalı qaçqınlarının BMT-yə, Avropa Şurasına, ATƏT-ə müraciəti oldu. Müraciətin əsas məqsədi dünyanın bu nüfuzlu beynəlxalq təşkilatlarına 1992-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq və bu qanlı cinayətə hüquqi-siyasi qiymət verilməsinə nail olmaqdan ibarət idi.

Ümummilli lider həmişə deyirdi ki, bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, AR-in ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, AR-in daxili suları, Xəzər dənizinin (gölünün) AR-ə mənsub olan sektoru, AR-in üzərindəki hava məkanı AR-in ərazisinin tərkib hissəsidir. Bu maddənin III hissəsinə əsasən AR-in ərazisi özgəninkiləşdirilə bilməz. AR öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız AR-in Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər. BMT-nin Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən, bütün üzv dövlətlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Beləliklə, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilmişdir. Ümummilli lider bununla bağlı demişdir: "Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı BMT-nin sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir". Erməni təcavüzü nəticəsində respublikamızın torpaqlarının 20 faizi 30 il ərzində işğal edilmiş, 900 yaşayış məntəqəsi zəbt edilmiş, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisəsi, xalqın ibadət yeri olan 10 məscid dağıdılmışdır. Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi ələ keçirilmiş və bütün vardövləti orada qalmışdır. Respublikamıza təxminən 50 milyard ABŞ dollarından artıq məbləğində ziyan dəymişdir.

Azərbaycan torpaqlarının Ermənistan tərəfdən işğalının əsası, əslində, XIX əsrin əvvəllərində qoyulmuşdur. Ümummilli liderin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. Sovet dönəmində, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQMV-nin Ermənistana birləşməsi haqqında Ermənistan rəhbərliyi tərəfindən vaxtaşırı cəhdlər edilmiş, lakin bu cəhdlərin qarşısı həmin vaxtlar alınmışdır. Ümummilli lider 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildikdən sonra DQMV-nin Ermənistana birləşdirilməsi barədə edilən cəhdlərin qarşısının alınmasında xüsusi prinsipiallıq göstərmişdir. Ümummilli liderin bu fikirləri maraqlıdır: " 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıbdır. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya Baş katib Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən, bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta, bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdur. Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma, qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım".

Ümummilli lider SSRİ rəhbərliyində - Sov. İKP MK Siyasi Bürosunun üzvü, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə erməni şovinistlərinin DQMV-nin Ermənistana birləşdirilməsi haqqında cəhdləri qətiyyətlə dəf edilmişdir. Lakin "üzdəniraq yenidənqurma"nın müəllifi M.Qorboçovun məkrli siyasəti nəticəsində Ulu öndər "səhhətinə görə" ölkə rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra ermənilər və onların havadarlarının əl-qolu açılır. M.Qorboçovun iqtisadi məsələlər üzrə müşavir, akademik A.Aqambekyan 1987-ci ilin sonunda Fransanın nüfuzlu "Humanite" qəzetində DQMV-nin Azərbaycandan alınıb, Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış etdi və 1988-ci ilin fevralında məlum Dağlıq Qarabağ hadisələri başladı. Ümummilli lider keçmiş Sov. İKP MK-nın 1989-cu ilin aprel ayının 25-də keçirilmiş Plenumunda Sov. İKP MK tərkibindən çıxarıldıqdan sonra ermənilər və onların havadarları, xüsusilə, əl-qol açırlar, artıq bu zaman məlum Dağlıq Qarabağ hadisələri intensiv surətdə genişlənir və dərinləşir. Nəticədə problemə beynəlxalq status verildi-1992-ci ildə ATƏT-in Minsk qrupu yaradıldı və BMT Qarabağ münaqişənin həllini ATƏT-in himayəsinə verdi. Minsk qrupuna 12 dövlət daxildir-ATƏT-in Minsk qrupunun həmsədrlərinin vaxtaşırı dəyişməsinə baxmayaraq, bu münaqişənin ədalətli həllini təmin edə bilmədi.

Ümummilli lider hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışmışdır. Lakin heç kəsdən gizli deyildir ki, dünyada ikili standartlar mövcuddur. BMT-nin TŞ Dağlıq Qarabağla bağlı 30 aprel 1993-cü il tarixdə 822 №-li, 29 iyul 1993-cü ildə 853 №-li, 14 oktyabr 1993-cü ildə 874 №-li və 11 noyabr 1993-cü ildə 884 №-li qətnamələr qəbul etmişdir. Həmin sənədlərdə BMT TŞ, əslində, Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan tərəfindən işğalını tanımışdır. Lakin BMT TŞ-nın həmin qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilmədiyi halda, bu ölkəyə qarşı heç bir sanksiya tətbiq edilməmişdir. Ümummilli lider Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. Ümummilli lider istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur. BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narhatlığı vurğulanmışdır. Dağlıq Qarabağ münaqişəsinin BMT Baş Məclisinin 61-ci sessiyasında müzakirəyə çıxarılması Ermənistanda siyasi atmosferi gərginləşdirmişdir. Rəsmi İrəvanın məsələyə soyuqqanlı yanaşmağa çalışması erməni siyasətçilərinə münaqişənin BMT səviyyəsinə çıxarılmasının Ermənistan üçün nə dərəcədə təhlükəli olduğunu demələrinə maneçilik törətmir. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın mövqelərinin getdikcə möhkəmlənməsi erməni siyasətçilərini son hadisədən hakimiyyət uğrunda mübarizədə yararlanmağa vadar edir. Ermənistan artıq iqtisadi müstəvidə uduzduğu kimi, siyasi müstəvidə də uduzduğunu başa düşür. Bu ölkənin Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq layihələrdən kənarda qalması, Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilməsi ilə beynəlxalq aləmdən təcrid olunması iqtisadi sahədə qazandığı "uğurlarıdır". Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin BMT-nin Baş Məclisinin sesssiyasına çıxarılması, BMT, AŞ, AB, İKT kimi beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması isə onun siyasi-diplomatik "uğurları"ndan xəbər verir.

Ulu öndər öz çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycan ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər. Prezident İlham Əliyev Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı çıxışında demişdir: "Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Bütün beynəlxalq normalara məhəl qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olcaqdır Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik". Bu illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin prioriteti olaraq qalmışdır. Ulu öndər demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm". Ümummilli liderin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədönlü fəaliyyəti nəticəsində qondarma Dağlıq Qarabağ problemi öz ədalətli həllini tapmışdır.

Azərbaycanın müasir - təxminən 50 illik dövrü böyük dövlət xadimi, mükəmməl strateq siyasətçi, fenomen şəxsiyyət Ulu öndərlə bağlıdır. XX əsrin 60-cı illəri təhlükəsizlik orqanlarından respublikanın ali rəhbərinədək olan yolda Vətəninə bağlı taleyüklü ömürdə Qarabağ məsələsi də gündəmdə olmuş, onun prinsipiallığı nəticəsində söndürülmüş, Azərbaycan xalqının milli maraqları dominant sayılmışdır. "1960-1970-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam" - söyləyən Ulu öndərin güclü qətiyyəti nəticəsində yalan və iftiraçı erməni iddiaları iflas olunmuşdur. Dahi şəxsiyyət Qarabağın geosiyasi tarixini, geoiqtisadiyyatı və mədəni-mənəvi həyat tərzini, orada tarixən yaşayan azərbaycanlı, eləcə də məskunlaşan erməni ailələrin keçmişini, birgə yaşayış münasibətlərini akademik səviyyədə bilir və Qarabağın inkişafı, abadlaşdırılması istiqamətində bütün sahələr üzrə işlər aparırdı. 1967-ci ildə erməni millətçiləri özləri erməni əsilli birini öldürmüş və bu ölümü iki azərbaycanlının üzərinə qoymuş, onların məhkəməsində isə həmin azərbaycanlıları öldürmüşdülər. Məqsəd milli münasibətləri qızışdırmaq, qarşıdurma yaratmaqla yerli əhalini köçürmək, Qarabağın Ermənistana birləşdirilməsinin bünövrəsini yaratmaqdan ibarət idi-Ulu öndər 15 gün şəxsən Xankəndinə gedərək, bu prosesin qarşısını öz məharətli çevik müdaxiləsi ilə aradan qaldırmışdır.

Ümummilli liderin birinci hakimiyyəti zamanında da ölkədə, xüsusən də Dağlıq Qarabağda milli düşüncə, milli ruh, milli kimliyin oyadılmasında danılmaz xidmətləri olmuşdur. Tarixi Şuşanı çox sevən ulu öndər onun iqtisadi-mədəni inkişafında da böyük səylər göstərmişdi. Sonradan isə Moskvada Siyasi Büroda üzv olarkən də daim bu "Ermənistana birləşmə" arzusunun qabağına sədd çəkmişdi. Müstəqil Azərbaycanda yenidən hakimiyyətə gələn Ulu öndər məhz etnik təmizləmə, təcavüz, soyqırım, erməni millətçiliyi məsələlərinin əsil köklü mahiyyətini açmış və daşnakların "birləşmək arzularına" siyasi-hüquqi qiymət vermişdir. Dünya ictimaiyyətinə ermənilərin terrorçuluq, işğalçılıq siyasətinin əsl mahiyyətini göstərmişdir. Ulu öndər söyləyirdi ki, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir" və onun ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri olduğunu vurğulayaraq bildirmişdi ki, "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur". Hazırda Prezident İlham Əliyev də "Bayrağımız bütün işğal edilmiş torpaqlarımızda dalğalanacaq" - deyə bəyan edir. "Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq", - söyləyən Ulu öndər sanki uzaqgörənliklə dünəndən bu günə səslənib və yaxud "Bizim məqsədimiz müharibə etmək deyil, ordumuz ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır" paradiqmal məntiqi günümüzün yoludur. Ulu öndərin "Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik" siyasi fəlsəfəsində "Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi" məntiqi var.

Prezident İlham Əliyev 2020-ci il sentyabrda Azərbaycanda qismən səfərbərlik elan etdi və sanki hər birimizdə dünəndən ünvanladığınız kəlamımızı öz qətiyyətli cəsarəti ilə oyatdı. Ulu öndərin "Dünya bilməlidir, o cümlədən Ermənistan bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir qarışını da heç kəsə verməyəciyik" hökmündə "Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli" əmri bu gün də Şuşaya yolumuz, amalımız da "Qarabağ Azərbaycandır" nidamızdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək "Mənim başa çatdıra bilmədiyim bütün işləri İlham Əliyev başa çatdıracaq" - söyləmiş və İlham Əliyevi siyasi varis elan etmişdir. Bu hadisə 2003-cü ilin payızında olmuşdur... Düz 17 il sonra isə yenə payızda Prezident İlham Əliyev böyük strateq Heydər Əliyevin uzaqgörən dühasının sübuta ehtiyacı olmadığını təsdiq etdi və Ali Baş Komandan, strateq sərkərdə olaraq işğalçı Ermənistanın yenidən atəşkəsi pozaraq torpaqlarımıza olan təcavüzünə qarşı Azərbaycan Ordusuna əks-hücuma keçmə əmrini verdi. Vaxtilə Ulu öndər Qarabağ münaqişəsini əlində xətkeş, önündə Azərbaycanın xəritəsi dünyaya Azərbaycanı-Qarabağı tanıdırdı, hazırda Ali Baş Komandan İlham Əliyev dünyanın məşhur televiziya və KİV-lərinə "Qarabağ Azərbaycandır!" bəyan edir.

Azərbaycan torpaqları işğal edilsə də, Ulu öndər siyasi-ideoloji, hərbi-diplomatik təbliğatı dayandırmır və ölkədə ictimai-siyasi sabitliyi bərpa edirdi. 17 il sonra XXI əsr Azərbaycanının islahatçı, lider Prezidenti, həm də xilaskar strateq, Ali Baş Komandan və Vətən müharibəsinin diplomat sərkərdəsi Ulu öndərin başladığı diplomatik yolu davam etdirdi. Prezident ilk öncə bu illərdə güclü ordu-güclü dövlət-güclü iqtisadiyyat strategiyası ilə vəhdətdə, azərbaycançılığa söykənən güclü xalq və kreativ, intellektual Azərbaycan vətəndaş formulasında xalqın milli mənafeyini qorumağa, Azərbaycanda yaşayan bütün xalqların birgəyaşayış həyat tərzinə hörmət amilini formalaşdırdı.

SİYASİ RAKURS

# Ermənilərin Laçın "tragikomediyası" və Xaçaturyanın həbsi

## Yaxud, Prezident İlham Əliyevin tarixi bəyanatı bir daha isbatlandı ki, heç bir qüvvə bizimlə təzyiq dilində danışa bilməz!




**Beləliklə, Azərbaycan 32 il əvvəl Xocalının Meşəli kəndində qanlı qırğın törətmiş erməni terrorçusu Vaqif Xaçaturyanı Laçın buraxılış məntəqəsində saxlamaqla və Bakıya gətirməklə sübut etdi ki, burada deyilən sözlər və verilən bəyanatlar heç də havaya deyilmir - Bakı qarşısına qoyduğu bütün məqsədlərini icra edir, özü də gecikmədən!**

### Terrorçular qanun qarşısında cavab verəcəklər və buna 100% məhkumdurlar!

Necə ki, Azərbaycan Laçın yolunda tam nəzarət mexanizmi quracağını vəd etmişdisə, indi də digər prosedurlar həyata keçirilməkdədir. Zamanında Azərbaycan xalqının qanına susamış bütün erməni və s. terrorçular qanun qarşısında cavab verəcəklər və buna 100% məhkumdurlar.

Ümumiyyətlə, təkcə Xaçaturyan deyil, paralel olaraq Robert Koçaryan, Serj Sarqsyan, Vitali Balasanyan, Samvel Babayan, Araik Arutyunyan, Bako Saakyan və onlarla digər Azərbaycan xalqının qatilləri artıq necə deyərlər, qaşınmağa başlayıblar və çox gözəl anlayırlar ki, Bakı heç nəyi unutmayıb. Vaqif Xaçaturyan faktı da məhz həmin anlamı daşıyır.

Və bu gün erməni əsilli Azərbaycan vətəndaşının 32 il əvvəl törətdiyi cinayətinə görə hakim qarşısına çıxarılmasına qarşı yenidən hay-küy qaldıran Ermənistan hökuməti də bilməlidir ki, başqa dövlətin daxili işlərinə qarışmaq onlara çox baha başa gələ bilər.

### Qeyd edilən tərəflər "Qarabağ ermənilərinin hüquqları" haqqında danışarkən...

Misal üçün, əgər Nikol Paşinyan, Rusiya, Aİ, ABŞ və Fransa "Qarabağ ermənilərinin hüquqları" barədə dəm vurarkən bir mühüm faktı unutmamalıdırlar- Azərbaycan dəfələrlə sübut edib ki, humanizm prinsipi Bakı üçün bir nömrəli məsələdir və bu prinsiplərə əməli qaydada riayət edilir.

Yeri gəlmişkən, yuxarıda qeyd edilən tərəflər "Qarabağ ermənilərinin hüquqları" haqqında danışarkən, məhz bunu nəzərdə tuturdular ki, onlara toxunulmazlıq, hətta Birinci Qarabağ müharibəsində terror törədənlərə amnistiya veriləcək və s. Göründüyü kimi, kökündən yanılıblar!

Xaçaturyanın həbsinə qədər isə onlar Xocalı və s. soyqırımlarına görə məhkəmələrin keçirilmədiyini anlayırdılar və bilirdilər ki, bu reallıq nə zamansa baş tutacaq. Ona görə də "ermənilərin hüquqlarının beynəlxalq zəmanəti" ətrafında səs-küylər qaldırırdılar. Birinci Qarabağ müharibəsi dövründə mülki əhaliyə qan udduran erməni başkəsənlərinin sayı isə əsla az deyil...

### Bakı bundan sonra heç bir manipulyasiyalara və təxribatlara dözümlülük göstərməyəcək!

Bakının isə səbri tükənməz deyil. Bəli, ola bilər ki, İrəvan "humanitar yükləri" Laçın yoluna göndərməklə beynəlxalq aləmdəki bəzi məlum dairələri Bakının üzərinə müəyyən qədər qısqırda bildi, amma bu da heç nəyi həll etmədi: Bakı geriyə addım atmadı, əksinə, daha sərt, daha qətiyyətli mövqeyini ortaya qoydu, özü də əsaslı şəkildə. Prezident İlham Əliyevin tarixi bəyanatı bir daha isbatlandı ki, heç bir qüvvə bizimlə təzyiq dilində danışa bilməz!

Hətta belə desək, Bakı maksimum humanizm siyasətini yürütməklə əlində mühüm kozır tutdu və təmkinlə proseslərin gedişatını izlədi. İndi isə nümayiş etdirdi ki, bundan sonra hər hansı manipulyasiyalara və təxribatlara dözümlülük göstərməyəcək!

*Afət Tahirqızı*



Lalə Mehralı

# Əzadar uşaqlar və bitməyən yas

**Günün tarixi və üzərindən əsrlər keçməsinə baxmayaraq hələ də xatırlanması barədə yazmayacam. Hər kəsin inancı özünə qiymətlidir, kimsə kimsənin müqəddəs bildiyinə dil uzatmamalı, yanlışını-doğrusunu müzakirə etməməlidir. Mən Aşura günü küçə və məscidlərdə başgözünə döyən əzadar uşaqlar, qanını tökən gənclər, başına palçıq yaxan insanlar barədə yazmaq istədim.**

Tarixi unutmamaq, əslində, yaxşı xüsusiyyətdir. İnsanlıq hansı çətinliklərdən, necə məşəqqətlərdən keçib, uşaqlar da bilməlidir. Lakin Xocalıda baş verənləri övladından gizlədən, onu öz yaxın tarixi barədə məlumatlandırmayan valideynlər əsrlər öncə baş vermiş hadisə barədə övladına müfəssəl məlumat verirsə, onu özü ilə məscidə aparıb əzadarlıq etməsi üçün şərait yaradırsa, burada bir yanlışlıq var.

Əslində oruclug, Məhərrəm ayı insanların bir-birinə empatiya duyması üçün olduqca gözəl prosesdir. Allah yolunda şəhid olanı xatırlamaq, müqəddəslərin yolunda ehsan verib ac insanları doyurmaq ən birinci insanın öz ruhunu dincəldir, ikincisi başqalarına faydalı olmuş olursan. Toxun acdan xəbərinin olduğu, evlinin evsiz barədə düşündüyü, varlının yoxsula əl tutduğu ay necə pis ola bilər ki?

Aşurada özünə zərər verib qan axıtmaq, başgözünü yaralamaq, körpələrin bədəninə zərər verib qanını tökmək İslamlaşdırılmış, lakin İslamla yaxından uzaqdan əlaqəsi olmayan adətlərdən hesab edilir. Aşura günü ərəfəsində kürəyi xüsusi formada kəsilmiş köynəklər geyinən, qoluna, alnına qara bağlayan, başına palçıq və ya kül çəkən, zəncirlə çılpaq kürəyinə döyən, sinəsini yumruqlayan, başına qəmə, xəncər, bıçaq ilə xətər yetirib qan axıdan kütləmi təmsil edir İslamı?

Uşaqları bu cahilliyə sürükləməyin, təhsil yerinə xurafat yüklənən yaddaşları, tərtəmiz zəkaları, dümağ beyinləri heyifdir. Məscid həyətində başına, sinəsinə döyüb ağı söyləyən yeniyetmələrin və uşaqların görüntülərini izlədikdə dərindən heyfsləndim. Üst-başına palçıq çəkib var gücü ilə başınagözünə döyən gəncləri, yeniyetmələri də sosial şəbəkələrdə yayılan görüntülərdə ürəkağrısı ilə izlədim. Onlara dinin gözəlliyini, məşhur din xadimlərinin əməllərini və xidmətlərini, Peyğəmbər və imamların din uğrunda mübarizələrini anlatmaq yerinə cahilliyə sürükləmək kimə, nə qazandıracaq?

Başını, alnını xəncərlə kəsib qan axıdan insanlar səhvən həyati bir damarı kəsə bilər, kürəyinə zəncir döyən, başına qapaz endirən insanların hamısının sağlamlıq vəziyyəti yerində olmaya bilər. Aşurada bashabasda, ayaqaltında qalıb əzilən də az olmur. Özləri bir yana, körpələrin alnını, başını kəsib qan axıdan qisim var. O körpələri ora aparan, incidilməsinə, zorakılığa məruz qalmasına göz yuman qadınlar, analar var. Övladının dərsini oxumamasından narahat olmayan, amma əzadarlıq etməməsindən narahat olan valideynlər var. Özləri şərait yaradırlar cahilliyə.

İnsan nümayişi sevən canlıdır. Hər hissini açıqaşkar, göstərə-göstərə yaşamağı sevir. Sevinir, qışqırır. Qəmlənir, ağlayır. Qorxur, bağırır. Hamısını nümayiş etdirir. Kədər nümayiş predmeti olmamalıdır, sakitcə yaşanmalıdır. Matəm də göstəriş, nümayiş deyil, olmamalıdır. Matəm ölənin ruhuna hörmətdir, bunu teatra çevirmək, cılızlaşdırmaq olmaz. Matəm, müqəddəs bildiklərin üçün tutulursa bu, ən ali formada yerinə yetirilməlidir. Başını yarıb, qanını tökmək, zəncir vurub palçığa batmaq yerinə ölüm döşəyində xilas olunmağı gözləyən minlərlə insana qan verib həyat qurtarmaq daha böyük ehtirama layiq davranış deyilmi? Can verənlər uğrunda can qurtarmaq qədər ali davranış varmı?

# İçirsən olmur, içmirsən olmur: bəs nə etməli?

**Ağrıkəsicilər həyati funksiya daşıyan orqanları sıradan çıxarır, kişilik hormonlarını məhv edir, "mavi"lik yaradır...**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*







Dünya mətbuatında ağrıkəsicidən ölən insanlar barədə xəbərlər çox yayılır. 2008-ci ildə ölkə mətbuatında ”spazmalqon gənc qızı öldürdü” başlıqlı bir xəbər də yayımlanmışdı. Hətta ağrıkəsici dərmanın insanın kişilik hormonlarına belə təsir etməsi barədə məlumatlar var. Bir neçə il əvvəl Fransada 50 yaşlı bir kişi bir neçə həftə içdiyi ağrıkəsicilərin onu mavi etdiyini iddia etmişdi. Tibbi ekspertizadan keçirilən kişinin bədənində, həqiqətən də, hormon dəyişikliyi müşahidə edildi. Dərmanları laborator müayinəyə göndərən məhkəmə iddiaçının iddiasını təmin etdi və dərman şirkəti fəaliyyətini sonlandırmaqla yanaşı, iddiaçıya külli miqdarda təzminat ödədi.

## Ağrını kəsir, amma xəstəlik qazandırır

Hazırda bütün dünyada böyük tələbat olan ağrıkəsicilər insanlar üçün ağrıdan qurtulmağın ən rahat vasitəsidir. Belə ki, indi dişi ağrıyan həkimə gedib problemin kökünü öyrənməkdənsə, ağrıkəsici ilə ağrını sovuşdurur, başı ağrıyan həkimə getmir, dərmanların köməyi ilə ağrını keyidir. Ağrı davam edir, sadəcə, ağrıkəsici onun siqnallarını səssiz edir. Bir müddətlik sakitləşmə isə bizə baha başa gəlir. Çünki uzun müddət yüksək dozalı ağrıkəsici istifadə etmək ağır böyrək çatışmazlığına səbəb olur.

Qonşu Türkiyədə ağrıkəsici istifadəsi yüksək həddə çatdığından, ölkənin səhiyyə qurumu narahatlığını dilə gətirib. Ağrıkəsici istehlakına görə dünyanın lider ölkələrindən biri olan Türkiyədə insanların ağrı kəsən dərmanlara ehtiyacı yemək, su kimi çoxdur. Bunun səbəbini stressli həyatla izah edən həkimlər yüksək dozalı ağrıkəsicilərin insanın tədricən intiharı kimi qiymətləndirirlər.

Ümumiyyətlə, mütəxəssislər bildirirlər ki, ağrıkəsicilər şikayət edilən problemi ortadan qaldırmır, yalnız müvəqqəti olaraq simptomları yox edir. Hər gün bir ağrıkəsici qəbul edən insanlar uzun müddət toksik maddələrin təsirinə məruz qaldığı üçün zamanla orqanlarında problemlər yaranır, bəzi həyati əhəmiyyət daşıyan orqanlar isə toksik maddələrin əsirinə çevrilir.



Yüksək dozalı ağrıkəsicilər uzun müddət istifadə edildikdə böyrək çatmazlığı yaradır. Bunu Türkiyədə bir qrup həkim apardıqları araşdırma ilə üzə çıxarıblar. Aparılan araşdırma zamanı təcrübədə iştirak edən insanların illər ərzində nə qədər ağrıkəsici qəbul etdiyi hesablanıb. Qəbul edilən ağrıkəsicilərin dozası da nəzərə alınıb. Əldə edilən nəticəyə görə, 10 ildə 2 kiloqram ağrıkəsici qəbul edən adamda böyrək çatmazlığı riski yüksəkdir.

Xüsusilə qeyri-steroid tipli ağrıkəsicilərin, revmatizmli xəstələr üçün hazırlandığını deyən türk mütəxəssislər bildiriblər ki, insanlar ağrıkəsicilərlə problemini ortadan qaldırmağa həvəslidir - deyə dərman şirkətləri daha güclü təsirə malik dərmanlar istehsal edirlər. Bir dərmanı bir dəfə istifadə edən və məmnun qalan insanlar bütün yaxınlarına həmin ağrıkəsicini məsləhət görür və beləcə bazar çiçəklənir. Amma əksəriyyət bilmir ki, bu güclü ağrıkəsicilər böyrəyə gələn qan axınını azaldır, qan təzyiqini artırır və bədəndə su və duz yığılmasına səbəb olur, böyrək sistemi üzərində yandırıcı təsir yaradır.

Mütəxəssislər hər ağrı zamanı ağrıkəsici istifadə etməməyi məsləhət görür. Ağrıları kəsmək üçün dərman istifadəsi yerinə ağrı zonasına soyuq buz tətbiqi etmək lazımdır. Dəhşətli baş, beyin, göz ağrıları ilə müşahidə olunan migren tutmaları zamanı ağrıkəsici yerinə ılıq duş qəbul etmək lazımdır, səsdən və işıqdan uzaq olmalı, istirahət edilməlidir.

## Apteklərdə ucuz dərman satmırlar

Dozası yüksək ağrıkəsicilər böyrəyə neqativ təsir göstərə bilər. Bu pereparatların yeni-yeni qrupları meydana gəlir, kimyəvi molekulları fərqli olur. Ağrıkəsicilərin təsir müddətinin uzadılması istiqamətində işlər də aparılır. Amma uzunmüddətli təsir edən dərmanların orqanlara ciddi təsirlərini də nəzərə almaq lazımdır. Yüksək dozalı ağrıkəsicilər uzun müddət qəbul edildikdə mədə-bağırsaqda qanaxma törədə bilər. Ona görə də təyinat zamanı bu dərmanların uzunmüddətli istifadəsi doğru sayılmır. Bu dərmanların xüsusi ilə də anti-revmatik effekti var. Yəni, belə ağrıkəsicilər revmatizm əleyhinə təsirə malikdir.

Narkotik ağrıkəsicilərə gəldikdə isə, xalq arasında ”morfi” deyə tanınan bu tip ağrıkəsicilər, əsasən, ağır xəstələrə tətbiq edilir ki, başqa yolla onların hiss etdiyi dəhşətli ağrıları zərərsizləşdirmək mümkün deyil. ”Morfi” dediyimiz narkotik tərkibli ağrıkəsicilər yalnız stasionar müalicədə istifadə edilir. Bu dərmanlar asılılıq yaradan olduğuna görə həkim nəzarətində qəbul edilir.

Yeri gəlmişkən qeyd edək ki, 15-20 il öncə əczaxanalarda normal ağrıkəsicini 10-15 qəpiyə əldə edirdik və ucuzluğunun dərmanın keyfiyyətinə təsir göstərməyəcəyini bilirdik. Qiymətlər dövr reallığı ilə uzlaşmalıdır, bəli, lakin keyfiyyət də uyğun olmalıdır. Amma indi apteklərdə bahalı dərmanı daha keyfiyyətli adı ilə tanıdırlar. Halbuki elə dərmanlar var ki, hazırlanma texnologiyası bəsit, tərkibi sadə, qiyməti də normaldır. Bu günlərdə şəhərin mərkəzində girdiyim bir aptekdən içində 6 ədəd olan və 15-20 qəpiyə satılan ənənəvi ”sıtramon” adlı ağrıkəsicini istədim, ”bizdə ucuz dərman olmur” deyə cavab verdilər.

Qeyd edək ki, internetdə, ölkəmizdə qadağan olunmuş dərmanların siyahısı ilə tanış ola bilərsiniz. Bu siyahıda ağrıkəsicilər də az deyil. Həkim məsləhəti olmadan dərman içməyin, bu, sizin sağlamlığınızı və gələcək həyatınızı ciddi şəkildə hədələyir. Dozası yüksək ağrıkəsicilər içməklə həm böyrəyinizə, həm də ürək, qan-damar sisteminizə neqativ təsir göstərə bilərsiniz.

***Lalə Mehralı***



# Azərbaycanda tibbi turizmi necə inkişaf etdirmək olar?

## EKSPERT AYDINLIQ GƏTİRDİ






"Tibbi turizm sağlamlıq turizminin bir qoludur. Tibbi məqsədlərlə edilən səyahətlər tibbi turizm adlanır. İnsanlar bir məkana səyahət edərək həm oradakı turistik fəaliyyətlərdən, həm də öz sağlamlıqları üçün tibbi imkanlardan faydalana bilirlər. Bunun üçün ilk növbədə ölkənin tibb sistemi kifayət qədər inkişaf etmiş olmalı, müəyyən standartlara cavab verməlidir. Eyni zamanda, ölkəyə gəliş-gediş rahat olmalı, nəqliyyat və viza məsələlərində əlçatanlıq təmin olunmalıdır. Bir çox ölkələr tibbi turizmi inkişaf etdirirlər. Çünki tibbi turizmdə demək olar ki, mövsümdən asılılıq yoxdur. Digər turizm növlərindən fərqli olaraq tibbi turizmdə bəzən qalma günlərinin sayı çox olur. Həmçinin, tibbi turizmdə xərclər də daha çox ola bilir". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.



Onun sözlərinə görə, Azərbaycana da ayrı-ayrı ölkələrdən insanlar tibbi məqsədlərlə səyahət edirlər: "Bu ölkələrin sayı təxminən 35-ə yaxındır. Azərbaycana daha çox Orta Asiya və Şərqi Avropa ölkələrindən səyahət edirlər. Çünki bizdə tibbi xidmətlər onlara nisbətən bahalıdır. Azərbaycana gələn tibbi turistlərin sayı o qədər də çox deyil. Lakin ölkəmizdə bu potensial var. Bunun üçün standartların formalaşması, tibbin kifayət qədər sistemləşməsinə ehtiyac var. Azərbaycanda artıq bir neçə tibbi müəssisə və klinikalar ABŞ-ın JCİ sertifikatını alıb".

Ekspert sözlərinə davam edərək bildirib ki, bu cür müxtəlif standartları əks etdirən sertifikatlar güvən simvoludur: "Bunlar gələn xəstələr və turistlər üçün ağılda yaranan tərəddüdlü sualların aradan qalxmasına kömək edir. Eyni zamanda, tibbi turizmin inkişafı üçün sistematik yanaşma da önəmlidir. Hər hansı bir cərrahın uğurlu əməliyyatı təkcə onun yox, komanda yoldaşlarının da müsbət nəticəsidir. Hansısa bir tibbi prosesin uğurlu olması, hələ ümumi prosesin uğurlu olması demək deyil.

Turizm sərgilərində Azərbaycana tibbi turizmin doğru şəkildə təbliği gələcəkdə tibbi turistlərin ölkəyə axınına xidmət edə bilər. Çünki hər hansı bir tibbi məqsəd üçün gələn turist ölkəni ziyarət etmiş, tanımış olur. Bu da ümumilikdə ölkə turizminin inkişafına müsbət təsir göstərir".

***Ləman Sərraf***

### E L A N

"Bakı İxtisaslaşdırılmış Mexanizasiya-7" Açıq Səhmdar Cəmiyyətinin 13 iyul 2023-cü il tarixində çağırılmış növbədənkənar ümumi yığıncağında yetərsay olmadığı üçün təkrar ümumi yığıncağın çağırılması zərurəti yaranmışdır.

Sizi 04.09.2023-cü il tarixində saat 10:00 Bakı şəhəri 7-ci mkr, Xarici dairəvi küçəsi 3121 məhəllə ünvanında keçiriləcək "BİM-7" ASC-nin səhmdarlarının təkrar növbədənkənar ümumi yığıncağına dəvət edirik.

**Yığıncağın gündəliyində müzakirə olunacaq məsələlər aşağıdakılardır:**

1. "BİM -7" ASC-nin 2023-cü ilin yarım illik maliyyə hesabatının müzakirəsi və təsdiqi.
2. ASC-nin hesabında olan vəsaitin miqdarının müzakirəsi və bölüşdürülməsi.
3. Təşkilatı məsələlər.
4. Digər məsələlər.

Yığıncaq iştirakçılarının qeydiyyatı 09:00-dan 09:45-dək göstərilən ünvanda keçiriləcək. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi və şəxsiyyəti təsdiq edən sənəd olmalıdır.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10:00-14:00 dək ASC-nin İdarə heyətinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

***İdarə Heyəti. Tel: (050) 212-16-13.***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Alimlər açıqladılar:

## İşlənmiş karbon iqlim böhranına çarə ola bilər



Beynəlxalq Tətbiqi Sistemlərin Təhlili İnstitutunun rəhbərlik etdiyi araşdırma mərkəzi karbon tutma və saxlama yolu ilə qlobal istiləşmədə azalma ola biləcəyini bəyan edib.

Xarici medianın yazdığına görə, Beynəlxalq Tətbiqi Sistemlərin Təhlili İnstitutunun məlumatına görə, araşdırmaçılar Paris iqlim sazişinin həllinə yönəlmiş tədqiqatda 1,5 °C hədəfinə çatmağa yaxınlaşıblar. Bu hədəfə çatmaq növbəti onillik ərzində iqlim böhranının qarşısını almaq üçün olduqca vacibdir. Problemin öhdəsindən gəlməkdən ötrü qlobal xalis sıfır emissiyaya nail olmaq və enerji sərfiyyatını minimuma qədər azaltmaq lazımdır.

Beynəlxalq Tətbiqi Sistemlərin Təhlili İnstitutunun tətbiq etdiyi yeni varianta əsasən, karbon tutma və saxlama yolu ilə karbon dioksidin təmizlənməsi bu məsələnin həlli olmağa potensial namizəddir. Yeni işlənmiş texnologiya ətraf havanı kimyəvi həllediciləridən keçirərək karbonu tutur və yer altında uzun müddət mühafizə edir. Lakin karbonun yer altında bu qədər uzun saxlanılması onun təkrar emalına şəraitdirmi, yoxsa onu daha faydalı üsulla əvəz etmək olarmı kimi suallara tədqiqatçılar hələ cavab tapmayıb. Hazırda karbon tutma və saxlama üsulu laboratoriya təcrübəsindən uğurla çıxıb və beynəlxalq iqlim siyasətinə tam uyğundur.

## Ronaldo bir reklam statusuna görə 2 milyon avro qazanır!



Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının Əl-Nəsr klubunun hücumçusu Kriştiano Ronaldo İnstaqramda ən bahalı bloqerdir. Bu barədə "The Sun"-a etibarlı mənbə məlumat verib.

Mənbənin sözlərinə görə, Ronaldonun bir reklam statusu yazmaq iki milyon avrodan çoxdur. Beləliklə, 38 yaşlı portuqaliyalı təxminən 1,7 milyon avro alan amerikalı model Kayli Cenneri birinci yerdən kənarlaşdırıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**